# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Tarixi həqiqəti bərpa etmək haqqımızdır



10

SƏS

№ 004 (7172)

10 yanvar 2025-ci il.
Qiymәti 60 qәpik

## Ölkə rəhbərinin verdiyi CİDDİ MESAJLAR VƏ DƏRS



2

# İrəvanın "quyruğu", Brüsselin "qulağı"...



3

### Xarici investorlar üçün cəlbedici ölkə - AZƏRBAYCAN



14

### "Azərbaycan dövləti hadisənin ədalətli və obyektiv araşdırılmasının tərəfdarıdır"



8

### Ailə problemlərinə yaş fərqi təsir edirmi?



7

### Əli Kərimli Leyla Yunusla birgə yeni işə başlayır



11

### Tələbələrin təhsillə bağlı xaricə üz tutmalarının səbəbləri NƏDİR?



15

# Ölkə rəhbərinin verdiyi CİDDİ MESAJLAR VƏ DƏRS



***Ölkə rəhbərinin, Azərbaycan Prezidentinin müsahibələrinin hər zaman böyük marağa səbəb olması heç də təsadüfi deyil. Ona görə ki, dövlət başçımızın nikbin yanaşmalar fonunda səsləndirdiyi tezislər, məhz regionda və dünyada mövcud vəziyyətə konseptual baxışı öz aydınlığı, konkretliyi ilə maraq doğurmaya bilməz və rəğbətlə qarşılanması da tamamilə məntiqi hesab olunur. Məhz cənab Prezidentin yerli televiziya kanallarına verdiyi sonuncu müsahibə də eyni şəkildə maraqla və rəğbətlə qarşılanıb, çünki təkzibelməz arqumentlərlə zəngin olan həmin müsahibə diqqətdən yayınan deyil.***

## Öz gücü ilə qələbə qazanan, yeni reallıqlar yaradan ölkənin müstəqil siyasət yürütməyə qadir olduğunun bütün dünyaya xatırladılması ciddi mesajdır

Dövlət başçısının 7 yanvar 2025-ci il tarixində yerli televiziya kanallarına veridiyi müsahibənin bütün məqamlarını tamamilə vurğulamaq və tam şəkildə əhatə etmək sözsüz ki, mümkün deyil. Lakin istərdik ki, bir sıra məqamlar barədə fikirlərimizi bölüşək və bununla belə əminik ki, istər Azərbaycan cəmiyyəti, istərsə də dünya ictimaiyyəti üçün ölkə rəhbərimizin vurğuladıqları kifayət qədər anlaşılandır. Həmçinin hər kəs yaxşı bilir ki, Azərbaycan Prezidenti hər zaman olduğu kimi, reallıqları diqqətə çatdırır və faktlara, arqumentlərə istinadən qeyd olunanlar məhz bu baxımdan da diqqətdən yayına bilməz. Xüsusən də diqqətdən yayına bilməyən məqam məhz yeni dünya düzəninin formalaşmasının Cənubi Qafqaza münasibətdə hansı təsirinin olacağını rəsmi Bakının müşahidəçi şəkildə gözləməyəcəyinin vuğrulanması diqqəti cəlb edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz müsahibəsi zamanı əslində çox ciddi mesajlar verib və bunun fərqində olanlar kifayət qədərdir. Həmin mesajlarda ölkəmizin məhz öz gündəmini davam etdirəcəyi çatdırılmaqla yanaşı, xüsusən də, Azərbaycanın Cənubi Qafqazda yeni nəqliyyat və enerji xəritəsi yaradan lider ölkə olduğu vurğulanır ki, bunun nə demək olduğu hər kəsə gün kimi aydındır. Hər kəsə aydındır ki, hər cür təzyiqlərə, təhdidlərə və təhlükələrə baxmayaraq, öz gücü, öz qüdrəti hesabına ərazi bütövlüyünü bərpa edən, artıq nəinki regionda yeni reallıqlar yaradan, hətta yeni dünya düzəninə töhfələr verən Azərbaycan müstəqil siyasət yürütməyə qadir ölkədir və məhz bu həqiqəti ölkə rəhbərimiz yerli telekanallara sonuncu müsahibəsi zamanı bütün dünya ictimaiyyətinə bir daha xatırladıb. Hər halda, dünya tarixində öz ərazi bütövlüyünü müstəqil şəkildə, təkbaşına həll edən Azərbaycandan başqa ikinci bir ölkənin olmamasını bilənlər həmin xatırlatmanı yaxşı başa düşürlər.

## Kəskin şəkildə bildirilir ki, Azərbaycan regionun taleyi ilə oynamaq istəyənlərə qətiyyən imkan verməyəcək

Cənubi Qafqazın lider ölkəsinin rəhbəri cənab İlham Əliyev yerli telekanallara verdiyi müsahibəsində bir daha diqqətə çatdırıb ki, Ermənistan hələ də regionda sülhün və sabitliyin təmin olunmasına ancaq manea törədir. Dünya ictimaiyyəti bu mesajı çox yaxşı başa düşür və artıq tam şəkildə anlaşılır ki, işğalçı ölkə hələ də sülhün, əmin-amanlığın, sabitliyin əleyhinədir və işğalçılıq Ermənistan üçün hələ də dövlət siyasəti olaraq qalmaqdadır. Əslində, bununla dövlət rəhbərimiz yerli telekanallara müsahibəsi zamanı, Türkiyə ilə Azərbaycan arasında Ermənistanın məhz coğrafi manea rolunu oynamamalı olduğu barədə bildirib ki, bunun özü də ciddi bir mesajdır. Məhz ilk öncə işğalçı ölkəyə, ardınca da həmin ölkəyə havadarlıq edən, işğalçılıq siyasətini dəstəkləyən, işğalçılara silah-sursat verib qızışdıran ölkələrə, məsələn, Fransa, ABŞ kimi ölkələrə ünvanlanan bu mesaj tamamilə yerinə düşür. Amerikalılar da, fransızlar da yaxşı başa düşürlər ki, coğrafi manea olmamalıdır ifadəsi nəyə işarədir və hər halda, bunun nə dərəcədə ciddi mesaj olması bəllidir.

Diqqətə çatdıraq ki, yerli telekanallara verdiyi müsahibəsi zamanı Ermənistanla bağlı müşahidə edilən silahlanma prosesini Cənubi Qafqaz üçün yeni təhlükə faktoru hesab etdiyini də Azərbaycan Prezidentinin qeyd etməsi heç də təsadüfi sayıla bilməz. Əlbəttə ki, bu məqamdan "öz hesabını gedənlər" var, hansı ki, bilirlər Azərbaycan heç də regionun taleyinə biganə qalmayacaq və dövlət başçımız da bunun fonunda xüsusi mesajlar verib. Mesaj da zənnimizcə, məhz rəsmi Bakının həmin silahlanmaya və regionda sülhə təhdid olan məsələlərə müşahidəçi, eləcə də fəaliyyətsiz qalmayacağı mesajıdır. Bir növ, bununla kəskin şəkildə bildirilir ki, Azərbaycan regionun taleyi ilə oynamaq istəyənlərə qətiyyən imkan verməyəcək. Xüsusən də başa salınır ki, Ermənistan silahlanmanı dərhal dayandırmalı və silahları işğalçı ölkəyə tədarük edənlər də öz hesabların gedərək, özlərinin provokativ niyyətlərindən əl çəkmelidirlər, verdikləri silahları da geri qaytarmalıdırlar.

## Bir sıra suallara Ermənistan tərəfinin cavab verməli olduğunu xatırladan dövlət başçısı həm dərs, həm də ciddi mesajlar verdi

Qeyd olunan son müsahibəsi zamanı Azərbaycan Respublikasının Prezidenti Zəngəzur dəhlizi ilə bağlı da mövqeyinin qətiyyətli olduğunu bir daha isbatladı. Zəngəzur dəhlizinin açıq olmalı olduğunu və mütləq açılacağını belə vurğulayan dövlət başçımız əlsində, bununla da bildirib ki, rəsmi İrəvan bu həqiqəti, bu zərurəti nə qədər tez başa düşsə, özü üçün bir o qədər yaxşı olar. Ölkə rəhbərimizin ünvanladığı sualın da son dərəcə məntiqi olması həqiqətən də düşündürücüdür və Ermənistan tərəfi məhz nə qədər və niyə gözləməliyik, sualının məntiqi cavabını verməli olduğunu anlamalıdır. Anlamalıdır ki, artıq bir çox "suallara" cavab vermək məsuliyyətini daşıyır və gec-tez cavab verməli olacaq. Məhz elə bu məqam cənab Prezidentin müsahibəsi zamanı böyük məharətlə qonşu ölkənin, Ermənistanın diqqətinə çatdırılır və bir növ, qarşı tərəfə ölkə rəhbərimiz tərəfindən "dərs" verilir.

Cənab Prezident yerli televiziya kanallarına verdiyi müsahibəsində azərbaycanlıların öz doğma yurd-yuvalarına, Qərbi Azərbaycana köçürülməsinin vacibliyini də diqqətə çatdırır və bununla da növbəti dəfə öz qətiyyəti ilə, siyasi iradəsi ilə bildirir ki, bu məqam da reallaşdırılacaq, bir zamanlar Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində didərgin düşənlər öz yaşadıqları, sahibi olduqları yerlərə mütləq qayıdacaqlar. Əslində, bu qayıdış məsələsi ilə bağlı ölkə rəhbərimizin sözləri erməni cəmiyyətində ciddi qarşılanmaya bilməz, çünki həmvətənlərimizin, bir vaxtlar Qarabağdan köçkün düşən vətəndaşlarımızın öz yurd-yuvalarına geri qaytarılacaqları, qayıdışı ilə bağlı dövlət başçımızın öz vədini necə reallaşdırdığına haylar artıq əmin olublar və indi də dediklərini yaxşıca "dərk etmək" heç də çətinlik törətməz. Daha dəqiq desək, ölkə rəhbərimizin öz müsahibəsi zamanı verdiyi ciddi mesajları "lazım olan tərəf" çox yaxşı başa düşür və bu baxımdan da görürük ki, həmin mesajlar tam hədəfə ünvanlanıb.

***İnam Hacıyev***

## Antonio Koşta Prezident İlham Əliyevə zəng edib

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Antonio Koşta təyyarə qəzası ilə bağlı dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığını çatdırıb, Avropa İttifaqının bu qəzanın hərtərəfli araşdırılması ilə bağlı ölkəmizin mövqeyini dəstəklədiyini bildirib.

Prezident İlham Əliyev başsağlığına görə təşəkkürünü ifadə edib.

Telefon söhbəti zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat, xüsusilə Transxəzər-Orta Dəhliz marşrutu üzrə daşımalar, Xəzər və Qara dəniz hövzələrini birləşdirən yaşıl enerji dəhlizinin yaradılması layihəsi, Azərbaycanın Avropa İttifaqına üzv ölkələrə qaz ixracı və enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin təmasların davam etdirilməsi razılaşdırılıb.

# İrəvanın "quyruğu", Brüsselin "qulağı"...

Ermənistan tərəfini seçməkdə hələ də tərəddüd edir. Moskva və Brüssellə, o cümlədən Vaşinqtonla münasibətlərdə mütəhərrikliyə üstünlük verir. Necə deyərlər, özünü tərəflərdən heç birinin ixtiyarına verməkdə tələsmir, guya düşünür, maraqlarının harada ağır gələcəyini hesablayır, bir sözlə tərəddüd edir. Guya hər üç "adaxlı" İrəvana kimi partnyor kimi seçəcəyi imkanını yaradıb. Əslində, Ermənistanın belə bir imkanı yoxdur, onu seçirlər, o seçmir. Bu gün Ermənistanda elə bir ab-hava yaşanır ki, guya sabah bu ölkənin Rusiyanın çətiri altında sonuncu günüdür və Avropa qollarını geniş açıb onu qucaqlayacaq. Halbuki, bu tarixi gözləyən ölkələrin sırası uzundur. Bu gün Bosniya və Herseqovina, Gürcüstan, Moldova, Şimali Makedoniya, Serbiya, Ukrayna, Monteneqro və Albaniya "qapıda gözləyənlər" statusuna malikdirlər. Avropa Komissiyası növbəti beş il ərzində sonuncu iki ölkə ilə üzvlük danışıqlarını başa çatdırmağı planlaşdırır.



## Ermənistanda toydur, Avropanın xəbəri yox...

Ermənistan hakimiyyəti ölkənin xarici siyasət kursunu elan edib və Avropa İttifaqına daxil olmaq üçün uzun prosesə başlamaq üçün qanun layihəsini dəstəklədiyini açıqlayıb. Kreml avrointeqrasiyanı İrəvanın suveren hüququ adlandırıb, lakin ölkənin həm Aİ, həm də Moskvanın açıqladığı kimi, Ermənistan üçün son dərəcə faydalı olan Avrasiya İqtisadi İttifaqında (AİI) eyni vaxtda üzvlüyünün mümkünsüzlüyü barədə xəbərdarlıq edib. Yanvarın 9-da keçirilən iclasda "Ermənistanın Avropa İttifaqına daxil olması prosesinin başlanması haqqında" qanun layihəsi ölkə hökumətinin dəstəyini qazanıb. İndi sənəd parlamentdə nəzərdən keçirilməlidir, sonra hakimiyyət Brüsseldən olan həmkarları ilə Avropaya inteqrasiya prosesinin yol xəritəsini müzakirə edəcək.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan İrəvanla Brüssel arasında son illərdə inkişaf edən münasibətləri "intensiv və dinamik" adlandırıb. "Aİ müxtəlif hallarda erməni demokratiyasına güclü siyasi dəstəyini ifadə edib. "Aİ faktiki olaraq Ermənistan Respublikası ətrafında təhlükəsiz mühitin təmin edilməsində iştirak edib", - nazir vurğulayıb. Nümunə kimi o, Aİ-nin mülki müşahidəçi missiyasının Ermənistan-Azərbaycan sərhədində yerləşdirilməsini göstərib. "Ermənistan Aİ-nin mümkün hesab etdiyi qədər bu birliyə yaxın olmağa hazırdır. "Mən vizanın liberallaşdırılmasının başlanğıcını və Aİ ilə istifadə edilmiş və ya müzakirə olunan bir sıra digər alətləri nəzərdə tuturam", - deyə Ararat Mirzoyan yekunlaşdırıb.

Baş nazir Nikol Paşinyan belə izah edib: "İstənilən ssenariyə əsasən, Ermənistan Respublikası yalnız referendum təyin edilərsə və konstitusiyamızda müəyyən edilmiş qaydada referendum iştirakçılarının müəyyən hissəsi səs verərsə, Avropa İttifaqına üzv ola bilər. Bu arada hökumətin iclasında Ararat Mirzoyan vurğulayıb ki, referendum hələ keçirilməsə də, təsdiq edilmiş qanun layihəsi artıq vətəndaş təşəbbüsünün nəticəsidir. Qanun layihəsi parlamentə təqdim edilməzdən əvvəl ölkə vətəndaşlarının Avrointeqrasiya lehinə 52 351 imzası toplanmışdı (50 000 imza tələb olunur).

Ermənistan hakimiyyətinin qərbyönlü ritorikası 2023-cü ilin sentyabrında Qarabağdakı müharibədən sonra güclənib. Baş nazir Paşinyan KTMT-ni Azərbaycan qoşunlarının irəliləməsi fonunda İrəvan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməməkdə günahlandırıb, təşkilatın özü və xüsusilə Rusiya hakimiyyəti isə qanuni olaraq Ermənistana qarşı xarici təcavüzdən söhbət getmədiyini bildirib. Tədricən, 2024-cü ildə İrəvan və Brüsseldə Ermənistanın Avropaya inteqrasiya perspektivləri ilə bağlı ehtiyatlı müzakirələr başlayıb. 2024-cü ilin martında Avropa Parlamenti Ermənistana namizəd ölkə statusu verilməsinə icazə verən qətnamə qəbul edib (bu qətnamələr, xatırlayırıq, məsləhət xarakteri daşıyır: qərarlar Aİ ölkələrinin liderlərində qalır).

Başqa yolda irəliləyiş bir qədər realdır: 2024-cü ilin sentyabrında Ermənistan və Aİ viza rejiminin liberallaşdırılması ilə bağlı danışıqlara başlayıb. Bildirilir ki, son məqsəd Avropa İttifaqına qısamüddətli səfərlərdə olan Ermənistan vətəndaşları üçün viza rejimini ləğv etməkdir.

Eyni zamanda, Aİ ilə yaxınlaşma Ermənistan üçün ən vacib məsələni - Azərbaycanla sülh müqaviləsinin imzalanması perspektivlərini daha da çətinləşdirir. Maneələr arasında sazişin iki mübahisəli bəndi (ümumilikdə 17-dir) var ki, bunlardan biri Ermənistan-Azərbaycan sərhədində kənar qüvvələrin yerləşdirilməməsi öhdəliyini nəzərdə tutur. Azərbaycan Prezidenti İlham Əliyev deyib ki, "qondarma avropalı müşahidəçilər adı altında" (Aİ missiyasını nəzərdə tutur) Ermənistan-Azərbaycan sərhədində "NATO infrastrukturu yaradılıb". Ermənistan hakimiyyəti israr edir ki, Aİ missiyası ən azı sərhədin demarkasiyası tamamlanana qədər burada qalması zəruridir.

Ermənistanın Avropaya üz tutması, Avropaya inteqrasiya qanun layihəsi kimi siyasi jestlər də Rusiya ilə münasibətlərə təsir edir. Cümə axşamı Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Ermənistanın Avropa İttifaqına üzvlük perspektivlərini qiymətləndirmək hələ də çətindir: ilk növbədə Brüsselin mövqeyini anlamaq lazımdır. Eyni zamanda, Kreml nümayəndəsi xatırladıb ki, ölkənin həm Aİ, həm də AİI-də eyni vaxtda iştirakı, "hipotetik olaraq, sadəcə olaraq mümkün deyil və biz əminik ki, AİI-yə üzvlük Ermənistan üçün faydalıdır", - deyə cənab Peskov əlavə edib.

## Ermənistan Ukrayna ilə eyni sırada

Ukraynanın atdığı dırmıqla Ermənistan da addım atacaq. Bu, özünü məhv edən prosesdir, politoloq Vladimir Kornilov mətbuata açıqlamasında bildirib. Bununla belə, o, zaman keçdikcə ölkənin Gürcüstan kimi anti-Rusiya kursundan dönəcəyini istisna etməyib. Cümə axşamı Ermənistan hökuməti Avropa İttifaqına üzvlük prosesinin başlanması ilə bağlı qərar layihəsini təsdiqləyib. "Ermənistan Ukraynanın Avropaya inteqrasiya yolunu tutmağa çalışır. İrəvan Qarabağı itirməklə yanaşı həm də geostrateji seçimini tükədib. Düşünürəm ki, Ermənistan Aİ-yə doğru irəlilədikcə, Ukraynanın atdığı dırmıqla addımlayacaq". Avrasiya Araşdırmaları Mərkəzinin direktoru Vladimir Kornilov "pis nümunə yoluxucudur" deyib.

Onun sözlərinə görə, Ermənistan uzun illər Aİ-yə daxil olmaq üçün öz növbəsini gözləyən ölkələr sırasında olacaq. Eyni zamanda, İrəvan üçün müəyyən güzəştlərin edilə biləcəyini də istisna etməyib. "Avropa İttifaqının müəyyən bir dövləti müxtəlif inteqrasiya səviyyələrinə qəbul etmək üçün standartlara öz yanaşmaları var. Ermənistan nə qədər çox anti-Rusiya kursu nümayiş etdirsə, Brüsseldən bir o qədər formal üstünlüklər alacaq", - ekspert izah edib. Bununla belə, o, bir gün Ermənistanın "Brüsselin postsovet məkanı ölkələrinə yanaşma nümunələrini görərək bu fəlakətli yoldan dönəcəyi" proqnozunu da verib. Onun sözlərinə görə, Gürcüstan belə bir nümunə nümayiş etdirib.

Bundan əvvəl Ermənistan Nazirlər Kabineti Avropa İttifaqına üzvlük prosesinin başlanması ilə bağlı qərar layihəsini təsdiqləyib, indi ölkə parlamentində müzakirəyə çıxarılacaq. Ermənistanın baş naziri Nikol Paşinyan aydınlıq gətirib ki, bu, Ermənistanın avtomatik olaraq Aİ-yə daxil olması demək deyil. "Bu məsələ ilə bağlı qərar yalnız referendumla qəbul edilə bilər", - Paşinyan qeyd edib. Bununla belə, baş tutmazdan əvvəl Avropa İttifaqı ilə yol xəritəsinin müzakirəsi planlaşdırılır.

## Paşinyandan Bakıya "təklif"?

Paşinyan yenə nala, mıxa vurub. Guya sülhdən danışıb, regionda təhlükəsizlik və sabitliyin tərəfdarıdır. Bəs, yeni silahların alınması, yeni bunkerlərin, səngərlərin qazılması, təlimlərin keçirilməsi, atəşkəsin pozulması nə deməkdir? Ermənistan hansı səbəbdən silahlandığına bir bəhanə də tapıb, guya Azərbaycandan özünü qoruma. Amma unudur ki, işğalçı Ermənistanın gücsüz, ordusunun darmadağın olduğunu hamıdan yaxşı Azərbaycan bilir. Amma sülh istədiyi, müharibədən imtina etdiyi üçün Ermənistanla hələlik qonşuluq prinsiplərinə hörmət edən dövlət kimi davranır. Ermənistan isə...

Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycana hüquqi, o cümlədən qarşılıqlı iddialardan əl çəkməyi və 90 faiz hazır olan sülh müqaviləsi bağlamağı təklif edib. Bildirib ki, onun təklifləri regionda uzunmüddətli sabitlik və sülhün bərqərar olmasına yönəlib. O, vəziyyəti gərginləşdirə biləcək ritorikadan çəkinməyin vacibliyini qeyd edib. O, həmçinin sərhədlərin delimitasiyası prosesinin və artıq 90% hazır olan sülh müqaviləsinin bağlanmasının davam etdirilməsinin vacibliyini vurğulayıb. Bundan əlavə, Ermənistan lideri "Sülh kəsişməsi" layihəsinin həyata keçirilməsini təklif edib. Layihənin məqsədi nəqliyyat kommunikasiyalarının qarşısının alınmasıdır. Paşinyan həmçinin atəşkəs rejiminin pozulması hallarının araşdırılması və saxlanılan şəxslərin məsələsinin tam həlli, habelə itkin düşənlərin taleyinə aydınlıq gətirilməsi üçün birgə mexanizmin tətbiqini təklif edib.

Üstəlik, silahlara qarşılıqlı nəzarət və onlardan istifadənin məhdudlaşdırılması üzrə danışıqlar mexanizminin formalaşdırılması ilə bağlı təkliflər də verib. Bundan əlavə, o, sülh bərqərar olduqdan sonra peşəkar ekspert komissiyasının yaradılmasını, hər iki ölkədən olan qaçqınlarla bağlı məsələləri birgə müzakirə etməyə çağırıb. Bundan əvvəl Paşinyan bildirib ki, Azərbaycanla sülhə nail olmaq üçün saxlanılan şəxslərlə bağlı məsələni həll etmək lazımdır. Yəni, söhbət separatçı qurum yaradaraq Azərbaycan dövlətinə qarşı çıxanlardan, azərbaycanlıları öz doğma yurdundan zorla qovanlardan, onlara məxsus mülkləri talayanlardan, xalqımızın milli, dini, tarixi abidələrinə qarşı vandalizmi aktı törədənlərdən, vətəndaşlarımızı qanunsuz olaraq girov və əsir götürənlərdən, onları istismaq edənlərdən, orqan mafiyasının predmetinə çevirənlərdən, öldürənlərdən, çeşidli qəddarlıqlar törədən terrorçulardan gedir. Paşinyan hətta onları "keçmiş prezidentlər" adlandırır. Belə görünür ki, bu "küçə siyasətçisi" məsələnin mahiyyətini anlamaqda hələ də çətinlik çəkir.

Azərbaycan Prezidenti İlham Əliyev isə son müsahibəsində Ermənistanı "faşist dövləti" adlandırıb və Zəngəzur dəhlizinin açılmasının vacibliyini bildirib. Həmçinin Ermənistanla sülh müqaviləsinin 17 maddəsindən 15-nin razılaşdırıldığını, qarşılıqlı iddialarla bağlı fikir ayrılıqlarının qaldığını bildirib. Paşinyan Ermənistanın sülh sazişi layihəsinin iki mübahisəli bəndi ilə bağlı təkliflərini Azərbaycana göndərdiyi deyib. Rəsmi Bakı isə mövqeyindən geri çəkilmədiyini qeyd edir, konstitusiyda dəyişiklik və ATƏT-in "Minsk qrupu"nun ləğv olunmasına razılıq verməsini istəyir. Hər iki dəyişikliyin olmadığı müddətdə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası gündəmdə qalmaqda davam edir. Öz torpaqlarını işğaldan azad edən Azərbaycanın mövqeyində beynəlxalq qanunlara istinad var, bəs Ermənistanın? Ərazi iddiasının hələ də qalması nə anlamına gəlir? Belə bir nöqtədə sülh imzalana bilərmi? Maraqlı suallardır. Əlbəttə, Qərbə sığınmaqla məsuliyyətdən yayınmaq istəyən Ermənistanın quyruq bulamasında Avropanın qulağı da görünür, başqa əzaları da.

**V.VƏLİYEV**

# Harada vətəndaşın Vətənə yolu yoxdur?

## Prezident İlham Əliyev: " Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik?"






***Artıq 35 ildən çoxdur ki, Naxçıvan Muxtar Respublikası blokada şəraitində yaşayır. Və Ermənistan hesab edir ki, vətəndaşı Vətənindən ayırmaqda haqlıdır, bu, elə belə də olmalıdır. Lakin bir məsələni qətiyyən düşünmək istəmir ki, axı dünyanın harasında vətəndaşın Vətəninə yolu yoxdur? Əlbəttə, heç yerində. Tək bunu fikirləşmək yetərlidir ki, bütün dünya bilsin ki, Ermənistan Naxçıvanı Azərbaycandan ayrı salıb. Təəssüf ki, Ermənistan qara tikan kolu olub bir dövlətin iki ərazisi arasına keçməsi və bir xalqın minlərlə nümayəndəsinin yolunu Vətənindən kəsməsi üçün özünü təqsirkar bilmir.***

Dövlətimizin başçısı yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibədə Naxçıvanla və Zəngəzur dəhlizi ilə bağlı dəyərli fikirləri ilə bu məsələnin üzərinə yenidən gəldi: Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, onlar 10 noyabr Bəyanatının müddəalarını yerinə yetirməlidirlər. Orada hər şey açıq-aydın göstərilib. Biz dörd ildən çoxdur ki, səbir göstəririk. Dörd ildən çoxdur istəyirik ki, bu, danışıqlar yolu ilə həll olunsun. Biz nə qədər gözləməli olacağıq və nə üçün gözləməliyik? Yəni, onlar bütün bunları nəzərə almalıdırlar. Mən bir dəfə demişəm, onlar gərək bizi əsəbləşdirməsinlər və başa düşsünlər ki, burada söz sahibi bizik və Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyatdır, aparıcı hərbi gücdür və aparıcı dövlətdir. Bugünkü dünyada güc amili ön plandadır və bunu heç kim unutmasın.

### Naxçıvan: 35 il əvvəl

Bu gün Naxçıvan blokada şəraitində yaşaya-yaşaya inkişafın müəyyən mərhələsində olsa da, bu inkişafla dünyaya nümunə olan bir regiona çevrilsə də, lakin bu qədim yurd yeri blokada vəziyyətindədir. Belə isə onun blokadaya salındığı illərə qısa bir tarixi səfər edək.

1988-1993-cü illərdə Ermənistan Azərbaycana qarşı tamah dişini qıcayanda və bir-birinin ardınca torpaqlarımızı işğal edəndə Naxçıvan üçün də olmazın çətinlikləri yarandı. Yəni bu çətinliklər öz-özünə yaranmırdı, ermənilər tərəfindən yaradılırdı. Çünki Naxçıvanın işğalı da düşmənin baş planında əsas yer alırdı. Başlanğıc olaraq artıq 88-89-cu illərdə Bakı-Naxçıvan qatarlarında hər gün yeni-yeni hadisələr törədilirdi. Qatarlar əvvəlcə daş yağışına tutulur, daha sonra isə gülləbaran edilirdi. Vaqonlar, pəncərələri deşik-deşik idi, yaxud da pəncərə şüşələri tamamilə qırılıb tökülmüşdü, yerinə nazik taxta lövhələr vurulmuşdu. Maşinistlər iki gündən bir döyülüb, təhqir edilirdi. Sərnişinlərin taleyi təhlükə altında idi və bu, ozamankı Azərbaycan rəhbərliyini əsla narahat etmirdi. Lakin naxçıvanlılar yenə də qatarlardan istifadə etmək məcburiyyətində idilər. Çünki paytaxt Bakıya bu nəqliyyat vasitəsi ilə gedib-gəlmək ucuz başa gəlirdi və odövrkü iqtisadiyyatı tənəzzülə uğramış ölkənin unudulmuş regionu olan Naxçıvanın əhalisi çox kasıb vəziyyətdə yaşadığı üçün həyatları təhlükə altında olsa da, bu nəqliyyatdan istifadə edirdi.

Ermənistan Naxçıvana gələn elektrik enerjisini mütəmadi kəsir, qaz kəmərini partladırdı. Nəticədə isə bu yerin əhalisi həftələrlə, aylarla işıqsız, qazsız qalır, qış aylarında Naxçıvanın sərt kontinental iqlimində soyuqdan donurdu. Elektrik enerjisinin kəsilməsi zavod, fabriklərin fəaliyyətinin dayanmasına, iş yerlərinin bağlanmasına, əhalinin aclıq, səfalətlə üzləşməsinə, xüsusilə isə bölgənin informasiya blokadasına salınmasına səbəb olmuşdu. Əhali ölkədə olan hadisələrdən bixəbər yaşayırdı. Prezident İlham Əliyev həmin günləri çıxışlarından birində belə xatırlayır: "Mənim yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu Öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni biz o günləri yaxşı xatırlayırıq.

### Naxçıvan blokadası və Ulu Öndər Heydər Əliyev

Ozamankı Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibətini də xatırlatsaq, muxtar respublikanın son dərəcə acınacaqlı durumu göz önünə gəlir. Belə bir vaxtda Ulu Öndər Heydər Əliyevin Naxçıvana gəlməsi əhalinin əsl nicatına çevrildi, hamı böyük xilaskarını tapdı. 22 iyul 1990-cı il tariximizə böyük bir mərhələnin başlanğıcı, eyni zamanda naxçıvanlıların xilası tarixi kimi daxil oldu. On minlərlə insan muxtar respublikanın şəhər, qəsəbə və kəndlərindən axın-axın Naxçıvan şəhərinə, Ulu Öndərin ziyarətinə gəlir, ona tükənməz sevgisini bildirirdi. Elə həmin gün Naxçıvan şəhərinin mərkəzi meydanında keçirilən möhtəşəm mitinqdə yüz minə yaxın insanın iştirakı da dahi rəhbərə xalqın sonsuz məhəbbət və inamının təntənəsi idi.

Təklənmiş bir adaya bənzəyən Naxçıvan görkəmli şəxsiyyətin gəlişi ilə nicat yoluna çıxdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə deyir: Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu. Azərbaycana edilmiş hərbi təcavüzdən - 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyasından çıxdı. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda ovaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə - Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu.

İllər ötdükcə blokada Naxçıvanı düşmənə meydan oxudu. Məhv olmaması, yaşaması ilə onların gözdağına çevrildi. Blokada Naxçıvanı informasiya blokadasını yarıb səsini dünyaya yaydı. Mənsub olduğu ölkənin rəhbərliyinin cəsarət edib toxuna bilmədiyi məsələlərə toxundu. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərar imzalandı. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı.

Ardı Səh. 5

Əvvəli səh. 4

Azərbaycanın müstəqilliyinə gedən yol Naxçıvandan başlandı. Bu yolun bələdçisi isə Ulu Öndərimiz Heydər Əliyev idi. 1991-ci ildə qazandığımız və 1920-ci ildəki kimi itirilmək təhlükəsi qarşısında olan müstəqilliyimiz məhz Ümummilli Liderimizin sayəsində xalqa bəxş olundu.

Ulu Öndər Heydər Əliyevin blokada Naxçıvanında yaşadığı, fəaliyyət göstərdiyi dövr iki illədək olsa da, Azərbaycan tarixinin böyük bir hissəsini əhatə edir. Böyük şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarındakı çıxışlarını, Naxçıvana gələn qonaqlarla söhbətlərini, ayrı-ayrı sahələrdəki vəziyyətlə bağlı fikirlərini, müsahibələrini oxuduqca çox məqamlar açıqlanır. Bunlardan birincisi, Ulu Öndərə baxmayaraq ki, Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi vaxtlar da ölkə rəhbərliyi tərəfindən təzyiqlər var idi, lakin onun Azərbaycan rəhbərliyinə həmişə böyük hörmət hissi ilə yanaşması dahi şəxsiyyətin böyük idarəçilik qabiliyyətinin, insanlığının, alicənablığının nəticəsi idi. İkincisi, Ulu Öndərin qonaqlara, xarici ölkələrdən gələn nümayəndələrə Naxçıvanın Azərbaycanın qədim ərazisi olduğunu tarixi faktlarla izahının şahidi olursan. Üçüncüsü, onun ölkədəki, eləcə də muxtar respublikadakı ictimai-siyasi hadisələrin siyasi təhlilinin və təcavüzkar Ermənistanın, onun havadarlarının uzaq gələcəyə hazırlanmış planlarını nə qədər dəqiqliklə analiz etdiyini görürsən. Ümumilikdə isə Ulu Öndərin hər bir çıxışı, söhbəti bu günün bir tarix dərsidir ki, gələcək nəslin Naxçıvan blokadası haqqında məlumat alması üçün bundan güclü ikinci bir mənbə yoxdur.

## "Şərq qapısı" qəzeti: Naxçıvan blokadasının canlı şahidi

Muxtar respublika 35 ildən artıqdır ki, blokada şəraitində yaşayır. Naxçıvanda nəşr olunan "Şərq qapısı" qəzetinin səhifələri blokada Naxçıvanının canlı şahididir. Blokadanın ilk illəri insanların tək ümidi "Şərq qapısı" qəzeti idi. Gündəlik çıxan bu qəzet muxtar respublikanın rayonlarına vaxtında çatdırıla bilmirdi. Yanacaq qıt olduğuna görə nəqliyyat işləmirdi. "Şərq qapısı" Naxçıvanda, onun sərhədlərində, dəmiryolunda, həmçinin digər sahələrdə olan hadisələrdən bəhs edən çoxsaylı yazıları dərc edən, Naxçıvana qarşı erməni təxribatlarını tam təfsilatı ilə ortaya qoyan, sakinlərə informasiya verən yeganə mətbu orqan, insanların əlinin çatdığı, oxuya bildiyi, məlumat aldığı yeganə mənbə idi.

1988-ci ildən başlayaraq qəzetin nömrələrini səhifələyərkən blokadanın ilk illərinin ağırlığı, aclıq-səfaləti hopmuş bu səhifələr sanki dil açıb danışır. Danışdıqca da tarixi ədalətsizliyin, hadisələrin necə düşünülüb həyata keçirildiyindən söhbət açır.

"Kommunist" qəzetininin müxbiri Piri Məmmədovun "Şərq qapısı" qəzetinin 20 fevral 1990-cı il tarixli sayında dərc olunan "Həyat yolu: Bu yerlərdə qatarlar nə şərqdən qərbə gedir, nə də qərbdən şərqə..." adlı yazıda neçə-neçə müəssisələrə, insanlara üz tutulur, müsahiblər alınır, təhlillər aparılır. Yazının sonunda müəllif belə yazır: ...Coğrafiyada hər şey Qrinviçdən ölçüldüyü kimi, bu yerlərin də bütün məsafələri dəmir yolu ilə müəyyən edilir. Dəmir yolu muxtar respublika üçün hər şeydir. İqtisadiyyatından tutmuş siyasi, sosial və mənəvi həyatınadək hamısı onun ahəngdar işləməsindən asılıdır. Dəmir yolu-respublikanın həyat yoludur. Onsuz əslində Naxçıvan da yoxdur. Bu mənada dəmir yolu nəyin hesabına olur-olsun işləməli, qatarlar gecə-gündüz qərbdən şərqə, şərqdən qərbə getməlidir. Kimin kimdə acığı, hayıfı varsa, qisas almaq istəyirsə, qoy başqa yol seçsin, muxtar respublikanın, onun 300 minlik əhalisinin həyat yoluna toxunmasın. Əks təqdirdə daha böyük bəlalar, daha dəhşətli faciələr nəsibimiz olar...

Digər maraqlı və ədalətli yazıya nəzər salaq. Qəzetin 21 fevral 1990-cı il tarixli nömrəsində "Oqonyok" jurnalının icmalçısı Georgi Rojnev "Nəhayətsiz yol" məqaləsində yazır: Azərbaycan torpağında kiminlə görüşdümsə, hər bir müsahibim özünün açıq inamsızlığını gizlətmirdi: "Əgər feln bütün mərkəzi qəzetlər və jurnallar, radio və televiziya bizi narahat edən problemlər barədə susur, ya utanmadan yalan danışırlarsa, sizin səfərinizin nə faydası!". Heç bir gün keçməmişdi, mən inandım ki, adamlar haqlıdırlar. Həlli yubanmış millətlərarası münaqişələrdə nə baş verirsə versin, oxucuya və dinləyiciyə eyni şaiyələr təqdim olunurdu: "Azərbaycan az qala qəddar təcavüzkardır, onun qonşuları isə günahsız qurbanlardır".

# Harada vətəndaşın Vətənə yolu yoxdur?

**Prezident İlham Əliyev: " Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik?"**




Öz vədimdə mən kələk gəlmirdim. Moskvaya qayıdıb mütləq həqiqəti danışacaqdım. Bəs sonra? İki aydan çox keçsə də, mən Azərbaycana və Ermənistana səfər barədə bircə sətir də çap etdirməmişəm. Heç bir Moskva qəzeti, heç bir jurnal mənə öz səhifələrində yer vermək istəmir. İzahı sadədir: mənim danışdığım həqiqət aylardan bəri oxucuların və dinləyicilərin beyninə yeridənlərə qətiyyən bənzəmir.

"Şərq qapısı"nın səhifələrində "Qatar gəlir, qatar gedir", "Sərhəddəki alov nəyi işıqlandırdı", "Çörək növbəsi", "Şəhərə... çörək dalınca", Həqiqətlər və müəmmalar, "Sədərək hadisələri", "90-ların acısı: Bacı toyu qardaş yasına döndü" kimi yüzlərlə yazılarda Naxçıvan blokadasının çətinliklərindən, Sədərəkdə və muxtar respublikanın Ermənistanla sərhəd digər rayonlarında törətdikləri münaqişələrdən, Naxçıvanın son dərəcə çətin bir şəraitdə yaşamasından, iqtisadiyyatının dağılaraq tamamilə iflic vəziyyətə düşməsindən, əhalinin maddi durumunun son dərəcə çətinləşməsindən söhbət açılır. Yüz il sonra da "Şərq qapısı" qəzeti Naxçıvan blokadasının ağır günlərini, daha sonrakı illərdə isə blokada şəraitində intibah dövrünü səhifələrində yaşadan mənbə kimi istinadgahımız olacaqdır.

## Doqquzuncu bənd - nəqliyyat damarı

2020-ci ilin payızında, 44-cü gündə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə İkinci Vətən müharibəsi qələbə ilə nəticələndi. 10 noyabrda Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladıqları Bəyanat isə ondan bir gün öncəki qələbənin üzərinə bir qələbə də əlavə edir. Ermənistan kapitulyasiya aktını imzalamaqla təslim olduğunu bildirdi. Beləliklə, Ağdam, Kəlbəcər və Laçın rayonları döyüşsüz, itkisiz Azərbaycana qaytarıldı. Bəyanatın 9-cu bəndi isə Naxçıvanın blokadadan çıxması üçün cənab İlham Əliyevin təkidi ilə bir maddə olaraq sənədə salındı.

Həmin vaxt Ölkə Prezidentinin xalqımıza müraciətindən: "Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu 9-cu bənd sırf mənim təkidim nəticəsində Bəyanata salınmışdır. Çünki müzakirə olunan, uzun illər müzakirə olunan sülh planında belə açıq-aydın müddəa yox idi. Yeni nəzərə alınırdı ki, bütün kommunikasiyalar açılacaqdır və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Hesab olunurdu ki, bu ümumi ifadə bunu ehtiva edir. Burada isə konkret göstərildi ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni bu dəhliz tam təhlükəsiz olacaq. Eyni zamanda, ikinci məsələ - tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası - bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə də bənd salındı. Yəni bu nə deməkdir? O deməkdir ki, iki dəhliz olmalıdır. Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir".

Çox təəssüf ki, Ermənistan imza atdığı Bəyanatda hələ də üzərinə düşən öhdəlikləri yerinə yetirməkdən imtina edir. Lakin bütün bunlara baxmayaraq Zəngəzur dəhlizi açılacaq və Naxçıvanın Azərbaycanın digər əraziləri ilə əlaqələri bərpa olunacaq.

## Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan vahid məkana çevriləcək

Dövlət başçısının yerli televiziya kanallarına müsahibəsində çox dəyərli fikirlərdən biri də Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın gələcək, həm də birlikdə inkişafı ilə bağlı idi: Mən müharibə başa çatandan dərhal sonra demişəm ki, biz Qarabağı cənnətə çevirəcəyik. Əslində, onsuz da bura öz təbii quruluşuna, gözəlliyinə görə cənnətdir. Amma müasir infrastruktur, yaşayış yerləri, iş yerləri, rahatlıq - bura doğrudan da dünyanın ən gözəl yerlərindən birinə çevriləcək. Bura çox böyük coğrafiyadır. Həm Qarabağ, həm Şərqi Zəngəzur və eyni zamanda, ona o qədər də uzaq olmayan Naxçıvan Muxtar Respublikası iqtisadi, sosial, yaşıl enerji və təhlükəsizlik nöqteyi-nəzərdən vahid bir böyük məkana çevrilməlidir, halbuki bu, bizim bölgüyə görə üç regiondur. Amma, eyni zamanda, bir-birinə tarixən bağlı olan bu bölgələr hazırda vahid konsepsiya əsasında inkişaf edir. Məsələn, biz bu il Naxçıvan və Ordubad şəhərlərinin Baş planlarının hazırlanmasına da başlayırıq. Ondan sonrakı illərdə Naxçıvan Muxtar Respublikasının digər şəhərlərinin Baş planlarının hazırlanmasına başlayacağıq. Qarabağ və Şərqi Zəngəzurdakı bütün yaşayış məntəqələri vahid Baş plan əsasında qurulur. Bu, bir nümunə olacaq. Sonra biz bunu ölkəmizin digər bölgələrinə də tətbiq edəcəyik. Yəni, orada həm idarəetmə, həm infrastruktur, həm də yaşıl enerji layihələri bütün ölkəni əhatə edəcək. Bax, bizim planlarımız bundan ibarətdir. Ümumi rəqəmləri gətirməklə kifayətlənirəm. Amma hesab edirəm ki, Azərbaycan televiziyaları və digər mətbu orqanları orada gedən prosesləri kifayət qədər işıqlandırırlar. Əlbəttə, istərdim ki, daha da çox işıqlandırsınlar. Çünki orada hər gün nəsə dəyişir, hər gün nəsə tikilir, hər həftə keçmiş köçkünlər oraya qayıdırlar. Ona görə bizim mətbuat o bölgədə gedən proseslərlə nə qədər çox maraqlansa və bunu işıqlandırsa, o qədər də yaxşı olacaq.



Bəli, dünyanın heç bir yerində hər hansı bir ölkənin vətəndaşı Vətənindən təcrid formada yaşamır. Odur ki, Zəngəzur dəhlizinin açılması mütləqdir. Və yalnız bu dəhliz Naxçıvan blokadasına son qoya bilər: Azərbaycan vətəndaşının öz Vətəninə yolu açılar.

Baxmayaraq ki, bu yolun sağı da, solu da bizim əzəli yurdumuzdur, bu yurdlar müəyyən dövrdə hansısa səhvlik ucbatından əlimizdən çıxıb, heç olması öz ərazimizdən bir yolumuz olsun. Bu, olacaq. Biz buna əminik.

***Mətanət Məmmədova***

# Azərbaycan dövləti hər zaman öz vətəndaşının yanındadır!

**Prezident İlham Əliyev: "Qara qutu"ların Braziliyaya göndərilməsi ondan xəbər verir ki, biz obyektivlik tələb edirik"**



Ötən ilin dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən ”Embraer 190” tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan həlak oldu. Sankt-Peterburq şəhərində MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiyaya səfərə yola düşən Prezident İlham Əliyevə baş vermiş qəza ilə bağlı məruzə olunan kimi, dövlət başçısı dərhal geri dönmək barədə tapşırıq verdi və Azərbaycana qayıtdı. Bakıya enən kimi elə hava limanında müşavirə keçirdi. Dərhal araşdırma komissiyası yaradıldı, xarici mütəxəssislər dəvət olundu, Qazaxıstana azərbaycanlı həkim briqadası göndərildi. Qəza ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edildi. Zərər çəkmiş şəxslərə, həlak olanların ailəsinə təzminatların ödənilməsi barədə göstəriş verildi. Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı-Qroznı istiqamətində uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvlərinin Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilən vida mə-



rasimində iştirak edərək, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı verdilər. Bütün bunlar bir daha göstərir ki, dövlət başçısı hər zaman öz vətəndaşının yanındadır.

Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev ”Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus ”Embraer 190” tipli sərnişin təyyarəsi Bakı-Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən baş vermiş qəza zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalamışdır. Sərnişin təyyarəsi Rusiya Federasiyasının hava məkanında kənar fiziki və texniki müdaxiləyə məruz qalaraq idarəetməni itirmiş vəziyyətdə Qazaxıstan Respublikasının Aktau şəhəri istiqamətinə yönləndirilmişdir. İnsan tələfatı və xəsarət alanlar olmasına baxmayaraq, pilotların, bələdçilərin yüksək peşəkarlığı, şücaəti və cəsurluğu sayəsində təyyarə qəza enişi həyata keçirmiş və sərnişinlərin bir qismi xilas edilmişdir. Azərbaycan dövləti hər zaman vətəndaşının yanındadır və onların hüquqlarını müdafiə edir. Azərbaycan Prezidentinin Sərəncamı ilə ”Embraer 190” tipli sərnişin təyyarəsi Bakı-Qroznı (Rusiya Federasiyası) reysini həyata keçirərkən baş vermiş qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiklərinə görə bir neçə şəxs təltif edilib. Belə ki, Kşnyakin İqor İvanoviç (ölümündən sonra), Kalyaninov Aleksandr Georgiyeviç (ölümündən sonra), Əliyeva Hökumə Cəlil qızı (ölümündən sonra) ”Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüblər. Əsədov Zülfiqar Sərdar oğlu, Rəhimli Aydan Vaqif qızı isə 1-ci dərəcəli ”Rəşadət” ordeni ilə təltif olunublar.

## ”ƏGƏR PİLOTLAR PEŞƏKARLIQ, QƏHRƏMANLIQ GÖSTƏRMƏSƏYDİLƏR, BU QƏZADA SAĞ QALAN OLMAZDI”

”Dekabrın 25-də Bakı-Qroznı marşrutu ilə uçan AZAL-a məxsus sərnişin təyyarəsi Qroznı şəhərinin yaxınlığında kənar müdaxilə nəticəsində idarəetməni itirib, zədələnib və demək olar ki, idarəolunmaz vəziyyətə salınıb. Məhz pilotların peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı nəticəsində təyyarə Aktau şəhərində qəza enişi edə bilib. Pilotların və bütün ekipaj üzvlərinin fəaliyyəti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib”. Bu fikirləri yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ”Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirərkən qəzaya uğramış ”Embraer 190” tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşü zamanı bildirib. ”Əgər pilotlar peşəkarlıq, qəhrəmanlıq göstərməsəydilər, bu qəzada sağ qalan olmazdı”, - deyə Prezident bildirib.





Azərbaycan Prezidenti İlham Əliyev 21 illik hakimiyyəti dövründə yüksək idarəçilik, təşkilatçılıq, liderlik keyfiyyətləri nümayiş etdirib. Dövlətimizin başçısı vətəndaşlara, ümid, inam yeri, arxa-dayaq olur, onu ümidsizləşməməyə, əksinə, daha da ümidli, inamlı olmağa ruhlandırıb.

Hadisə baş verən vaxtdan sonra qısa bir zamanda Dövlət Komissiyası yaradıldı və müvafiq qurumların nümayəndələrindən ibarət heyət Aktau şəhərinə dərhal ezam edildi. Prezidentin göstərişi ilə Azərbaycan prokurorluğu cinayət işi açdı. ”Prokurorluğun işçi qrupları həm Qroznı, həm Aktau şəhərlərinə ezam edilmişdi, orada operativ işlər görmüşdür. Yenə də deyirəm, ilkin məlumatlar var. Biz təbii olaraq istintaqın başa çatmasından sonra tam məlumatı Azərbaycan ictimaiyyətinə çatdıracağıq. Ancaq dekabrın 29-da bildirdiyim bir məqamı bir daha diqqətinizə çatdırmaq istəyirəm. Qroznı şəhərində ”kavyor əməliyyatı”, yəni, hava sahəsinin bağlanması əməliyyatı təyyarə yerdən vurulandan sonra elan edilib. Bu, bir daha onu göstərir ki, burada çox ciddi cinayət tərkibli məsələlər var. Adətən hər hansı bir ölkənin hava məkanında təhlükə yaranırsa, dərhal o ölkənin hava məkanı bağlanır. Bu, bütün ölkələrdə var və bunun müxtəlif adları var. Rusiyada buna ”kavyor əməliyyatı” deyirlər. Əgər Rusiyanın hava məkanı üçün təhlükə var idisə, dərhal təyyarə kapitanına bu barədə məlumat verilməli idi. Dərhal hava məkanı bağlanmalıydı və təyyarə geri dönməli idi”, - deyə Prezident bildirib. Baş vermiş qəzadan təqribən 10 gün əvvəl oxşar hadisənin Qroznı şəhərinin yaxınlığında baş verdiyini bildirən Azərbaycan Prezidenti onu da qeyd edib ki, AZAL-a məxsus təyyarə yarı yoldan geri dönmüşdü: ”Nə üçün bu dəfə təyyarə ekipajına xəbərdarlıq edilməmişdi? Bunu təbii olaraq istintaq göstərəcək. Mən bir daha demək istəyirəm ki, bizdə olan məlumat həqiqətə əsaslanır. Rusiyanın dövlət qurumları tərəfindən bu hadisəni ört-basdır etmək və cəfəng versiyalar üzərində dayanmaq bizdə həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur. Günahsız insanlar həlak olublar. Yenə də deyirəm, məhz pilotların və ekipaj üzvlərinin qəhrəmanlığı nəticəsində 30-a yaxın insan bu qəzadan sağ çıxıb, onların bir neçəsi ağır yaralanmışdır. Onu da bildirməliyəm ki, qəza nəticəsində ən çox həlak olan Azərbaycan vətəndaşlarıdır. Eyni zamanda, Rusiya və Qazaxıstan vətəndaşları da həlak olublar. Qırğızıstan vətəndaşları isə yaralanmışdır”.

## İDARƏOLUNMAZ HALDA OLAN TƏYYARƏNİ SAHİLƏ QƏDƏR ÇATDIRMAQ HƏM PEŞƏKARLIQ, HƏM DƏ QƏHRƏMANLIQ TƏLƏB EDİRDİ

Ekipaj heyətinin peşəkarlığı, rəşadəti və qəhrəmanlığı sayəsində 30-a yaxın insanın həyatını xilas etmək mümkün oldu. ”Yəqin ki, siz də bu faciəvi xəbərin dünya mediasında necə işıqlandırıldığını izləyirsiniz. Bütün digər məsələlərlə yanaşı, ekspertlər məhz pilotların peşəkarlığını və qəhrəmanlığını qeyd edirlər, eyni zamanda, ekipaj heyətinin bütün digər üzvlərinin yüksək keyfiyyətini. Çünki belə bir şəraitdə qəza enişi etmək və Rusiyanın hava məkanında kənar müdaxilə nəticəsində demək olar ki, idarəolunmaz halda olan təyyarəni sahilə qədər çatdırmaq həm peşəkarlıq, həm də qəhrəmanlıq tələb edirdi. Heç kim özünü itirmədi, hərçənd artıq dediyim kimi, ekipaj üzvləri başa düşürdülər ki, sağ qalmaq şansı demək olar, yoxdur”, - deyən Prezident bildirib ki, görünür, pilotlar əmin idilər ki, bu, onların sonuncu reysidir, amma bununla belə, insanları xilas etmək üçün hər şeyi etdilər: ”Qəhrəmanlıq da bundan ibarətdir. Əgər pilotların nümayiş etdirdikləri qəhrəmanlıq və fədakarlıq meyarları varsa, bunu məhz belə adlandırmaq lazımdır. Azərbaycan dövləti öz oğul və qızlarının fəaliyyətini, qəhrəmanlığını həmişə layiqincə qiymətləndirib. Bu dəfə də ekipaj heyətinin qəhrəmanlığı layiqincə qiymətləndirildi”.

Prezident İlham Əliyev təyyarə qəzasında həlak olan ekipaj heyətinin ailə üzvləri və sağ qalan bələdçilərlə görüşündə bildirib ki, ”qara qutu”ların Braziliyaya göndərilməsi ondan xəbər verir ki, biz obyektivlik tələb edirik. Hər zaman ədalətli mövqe sərgiləyən Prezident İlham Əliyevin təkidi ilə ”qara qutu”ların təhlilinə Azərbaycan, Qazaxıstan və Rusiya nümayəndələrinin iştirakı ilə Braziliyada başlanılıb. ”Əminik ki, yaxın vaxtlarda biz hadisənin ilkin səbəblərini dəqiqliklə öyrənəcəyik. ”Qara qutu”ların açılması prosesi başlanmışdır. Bizim təkidimizlə bu proses Braziliyada həyata keçirilir. Mən bunu dekabrın 29-da televiziyaya müsahibəmdə demişdim ki, biz bütün təkliflərə və təkidlərə baxmayaraq Dövlətlərarası Aviasiya Komitəsinin ”qara qutu”ları açmasına qəti etiraz etmişdik. Çünki burada obyektivlik sual altına düşə bilərdi. Burada hüquqi dillə desək, maraqlar toqquşması ola bilərdi. Ona görə Azərbaycan, Qazaxıstan və Rusiya nümayəndələrinin iştirakı ilə Braziliyada ”qara qutu”ların təhlilinə başlanılmışdır və yəqin ki, yaxın gələcəkdə bu barədə də məlumat veriləcək. Təbii ki, bu günə qədər hələ də açıq olmayan bütün məsələlər də üzə çıxacaq. Gün kimi aydın olan məsələlər ondan ibarətdir ki, təyyarə radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bizə bəlli olan digər məsələ ondan ibarətdir ki, təyyarə yerdən açılan atəş nəticəsində zədələnmişdir. Ancaq nə üçün təyyarə Aktau istiqamətinə göndərilmişdir? Bu barədə bizdə hələ ki, məlumat yoxdur. Bu, yerli dispetçerlər tərəfindən qəbul edilmiş qərar əsasında baş verib, yoxsa pilotlar özləri başa düşərək ki, artıq Rusiyanın hava məkanında radioelektron mübarizə vasitələri onlara eniş etmək üçün imkan verməyəcək və özləri bu seçimi ediblər. Bu barədə hələ ki, bizdə məlumat yoxdur. Təbii ki, ”qara qutu”lar açılandan sonra bütün bu məlumatlar olacaq”, - deyə Prezident bildirib.

Hər zaman çıxışlarında ”Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”, - deyən Prezident İlham Əliyev əməli fəaliyyətində bunu göstərir. Əlbəttə, Azərbaycan dövləti, Azərbaycan Prezidenti hər zaman öz vətəndaşının yanındadır, onun firavan yaşayışını, təhlükəsiz həyatını təmin etmək iqtidarındadır. Dövlətimizin gücünü, qüdrətini hər bir Azərbaycan vətəndaşı duyur, dərk edir və bu, onlar üçün qürurvericidir.

*Zümrüd BAYRAMOVA*

# “Nikol Paşinyanın məhdudlaşdırıcı şərti yanlışdır”

*Qərbi Azərbaycan İcması Ermənistanın baş nazirini dialoqa çağırıb*



***Qərbi Azərbaycan İcması Ermənistanın baş naziri Nikol Paşinyanın dünən mətbuata verdiyi açıqlamasında Qərbi Azərbaycan məsələsi və Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsinə dair ifadə etdiyi fikirlərin bəzilərinə cavab verib. AZƏRTAC icmanın cavabını təqdim edir:***

”Bir daha vurğulayırıq ki, Qərbi Azərbaycan məsələsi ərazi deyil, insan hüquqları məsələsidir. Biz Ermənistanın ərazi bütövlüyü və suverenliyinə hörmət etdiyimizi dəfələrlə ifadə etmişik. Qərbi Azərbaycan termininə gəldikdə, vurğulayaq ki, bu, tarixi həqiqətlərə əsaslanan və bizim özünüidentifikasiya hüququ çərçivəsində istifadə etdiyimiz anlayışdır. Ermənistan hökuməti coğrafi-tarixi məzmunda polemikaya girmək əvəzinə problemin mahiyyətinə dair mövqeyini ifadə etməlidir.

Qərbi azərbaycanlıların qayıdışına dair Ermənistan və Azərbaycan arasında dövlətlərarası dialoqun sülh müqaviləsinin imzalanmasından sonra aparıla biləcəyi barədə Nikol Paşinyanın məhdudlaşdırıcı şərti yanlışdır. Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmaq Ermənistanın beynəlxalq hüquqdan və insan hüquqlarından irəli gələn öhdəliyidir. Ermənistan Respublikası Azərbaycan Respublikası ilə ikitərəfli münasibətlərinin xarakterindən asılı olmayaraq, Qərbi azərbaycanlıların - indi Ermənistan adlanan ölkənin qanuni sakinlərinin qayıdışına qeyd-şərtsiz şərait yaratmalıdır. Qayıdışa dair dialoqun süni şəkildə sülhdən sonraya saxlanması və yaxud qayıdışı dövlətlərarası dialoqla şərtləndirmək insan hüquqlarına ziddir və sülhün əldə edilməsinə xidmət etmir. Vurğulayaq ki, bu mövzuda əsas dialoq xətti Ermənistan hökuməti və Qərbi Azərbaycan İcması arasında aparılmalı olan formatdır.

Biz baş nazir Nikol Paşinyanı regionda sülh və əməkdaşlığın bərqərar olunması üçün səmimi səylər göstərməyə, Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağa və bu məqsədlə icmamızla dialoqa başlamağa çağırırıq”.




## Qırğızıstan mediası Azərbaycan Prezidentinin yerli telekanallara müsahibəsini işıqlandırıb

Qırğızıstanın tanınmış informasiya vasitəsi olan ”turktoday.info” portalı Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibənin tam mətnini dərc edib. AZƏRTAC-da yayımlanan xəbərlərdən istifadə edən ”turktoday.info” informasiya agentliyinin materialında Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə görüşlərin əhəmiyyətindən bəhs olunub. Materialda Azərbaycan Prezidentinin çıxışından sitata yer verilib: ”Bu ay, hər halda bizim təşəbbüsümüzlə, təklifimizlə delimitasiya məsələsini davam etdirmək üçün delimitasiya üzrə Azərbaycan və Ermənistan komissiyalarının növbəti görüşü olmalıdır”.

Daha sonra agentliyin dərc etdiyi yazıda Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə danışıqların növbəti raundunun yanvarda baş tuta biləcəyi qeyd edilib.

Məqalədə həm də sərhədlərin delimitasiyası və demarkasiyası məsələsinin Azərbaycan və Ermənistan arasında gələcək sülh müqaviləsinin tərkib hissəsi olduğu vurğulanıb. Rəsmi Bakı və İrəvanın 2022-ci ildən etibarən gələcək sülh müqaviləsinin bir hissəsi kimi öz sərhədlərinin delimitasiyası və demarkasiyası məsələsini müzakirə etməyə başladığı xatırladılıb.

# Ailə problemlərinə yaş fərqi təsir edirmi?






**“Ailə qarşılıqlı sevgi və ehtiram üzrə qurulur. Əlbəttə ki, ailə təməlinin möhkəm olması, sevginin ilk günlərdəki kimi davam etməsi və ehtiramın itməməsi üçün müəyyən faktorlar vardır ki, ailə həyatı qurmamışdan əvvəl üzərində düşünülməli olan amillərdir”. Bu sözləri Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, deputat Jalə Əliyeva SİA-ya açıqlamasında deyib.**

Deputat həmçinin bunları da qeyd edib: “Yaxınlarda Ailə Məcəlləsinə nikaha daxil olma yaşı ilə bağlı Milli Məclisdə yeni dəyişiklik edildi. Nikaha daxil olmaq üçün yaş həddi 1 yaş artırıldı. Gənclərin daha da yetkinləşməsi və ailə münasibətlərinə mənəvi, fiziki, psixoloji baxımdan hazır olmaq, ailənin möhkəmliyinin təmin edilməsi məqsədi güdür. Eyni zamanda qohum nikahları qadağan edildi, çünki biz bunun mənfi təsirlərini cəmiyyətdə görürük. Qohum ailələrində çox təəssüflər olsun ki, dünyaya gələn uşaqlar irsi qan və digər xəstəliklərinin daşıyıcısı olurlar. Bu da təkcə ailələri yox, dünyanın genefondunu kökündən sarsıdan və hər birimizi narahat edən məsələlərdəndir. Eyni zamanda boşanmaların səbəblərindən biri də gənclərin nikah yaşının düzgün seçilməməsindən irəli gəlir və bu da ailədə anlaşılmamazlıqlara səbəb olur.

Doğrudur ki, Şərq qadını olaraq biz qadının kişidən yaşca kiçik olmasını qəbul etmişik və bu tarixəndə belə olub. Bu gün bizlər müasir həyatda, texnikanın inkişaf etdiyi dövrdə yaşayırıq və görünən odur ki, həyat tez və sürətlə müasirləşib inkişaf edir. Buna görə də eyni yaşda və eyni nəslə aid olan insanlar daha yaxşı anlaşır, daha tez uyğunlaşır. Lakin arada yaş fərqi artıqca istər maraqlar, istərsə də fiziki baxımdan dəyişikliklər olur. Fikrimcə, bunlar nisbi və fərdi məsələlərdir və yüzdə yüz demək olmaz ki yaşıd insanların ailələri daim xoşbəxt olur, nəinki yaş fərqi çox olan insanlar. Bunu da bir kriteriya kimi götürmək düzgün deyil, yəni insan özündən kiçik yaxud böyük biri ilə həyatını davam etdirmək istəyirsə, özünü hazır görürsə, ailə bu şəkildə möhkəm olacaqsa, təminatı varsa niyədə olmasın. Ümumi yanaşmada əlbətdəki düzgün və sağlam olan yaş fərqinin həddən artıq çox olmamasıdır. Həmçinin 2, 3, 5 yaş fərqləri elə də böyük sayılmamalıdır və ya əksinə kişinin sadaladığım yaş fərqlərinə sahib olması ailənin daha möhkəm, sağlam düşüncələrə və qərarlar verilməsinə səbəb olur. Bir daha qeyd etmək istəyirəm ki, bütün bunlar həddən artıq məhrəm mövzulardır və sırf ailə daxili məsələlərdir. Hansısa hallar təkrarlananda və bu hallar mənfi olduqda o zaman cəmiyyətə aid edilir. Həmçinin ümumilikdə cəmiyyətə, ölkənin gələcək inkişafına və genefonduna zərər gətirməyə, ailələrin özündə də narahatlıq edən zaman bu məsələ haqqında düşünməyə başlayırıq. Nə edək və hansı addımları ataq ki, ailələrimiz daha möhkəm olub, bir-birilərini anlasınlar. Çünki biz düşünməliyik ki, həmin ailədən olan uşaqlar sağlam olmalıdır, onlar bizim gələcəyimizdir. Uşaqların rahat, xoşbəxt olmasını təmin edən şəxslər ilk növbədə onları dünyaya gətirən şəxslərdir. Dövlət bütün ailələrə öz qayğısını göstərir, himayə edir və ailələrin möhkəmliyi üçün bütün təminatları verir. Amma ailələrimiz özləri nikaha daxil olarkən əvvəlcədən bu məsələ haqqında ətraflı və dərin düşünməlidir”.

**Bu məsələ ilə bağlı sosioloq Lalə Mehralı da fikirlərini bildirib:** ”Tarix boyu demək olar ki, bütün cəmiyyətlərdəki evliliklərdə kişilərin qadınlardan bir neçə yaş böyük olması qəbul edilib. Bu rəqəm minimum 3, maxsimum 7 hesab edilirdi. 20-30 il əvvəl kişilər təxminən 25 yaşında, qadınlar isə 20 yaş civarında evlənirdilər. Bu gün hər iki cinsin evlilik yaşı artıb, qızlar təhsil almadan və müəyyən bir peşə sahibi olmadan ailə qurmaq istəmir. Bu yaxşı haldır, lakin kariyeraya qurban verilən ömür də puç olmuş olur. Dönüb həyatına baxanda insan əldə etdiklərinin itirdiklərindən daha az olduğunu görür”.

Bəzən tərəflərin eyni yaşda olduğu ailələrə də rast gəlinir. Mütəxəssislər evliliklərdə yaş faktorunun sağlam ailə təməli üçün vacib olduğu qənaətindədir. Xüsusilə kişilərin evlənərkən həyat yoldaşından minimum 5 yaş böyük olması məsləhət görülür. Çünki ideal evlilikdə kişinin qadından ən az 5 yaş böyük olması kişilərin gec yetkinləşməsi ilə əlaqələndirilir. Bunu həm də bioloji olaraq tibb elmi təsdiqləyir. Qızların yetkinlik yaş dövrünün 12, oğlanlarda isə bu yaşın 15 olması buna əyani sübutdur. Bu yetkinlik fərqi sonrakı illərdə də özünü göstərir. Eyni yaşda olan kişilər və qadınlar arasında evlənməyə hazır olma dövrü arasında ciddi fərq var. 20 yaşlı bir oğlan hələ ərgənlikdən tam çıxmır, lakin həmin yaşda qadın kifayət qədər yetkin olur. Eyni yaşda olan tərəflərin evliliyində bu həmişə problem olur”.

***Xeyrənsə Piriyeva***

*Əcnəbi ekspertlər şərh edir*

# Bayden administrasiyasının gecikmiş Qafqaz qızışması nə məqsəd güdür?



**Aleksandr Ryabtsov: "Burada məqsəd özü üçün maksimum siyasi bonuslar toplamaqdan ibarətdir ki, bu kapitalı sonrakı siyasi oyunlar üçün istifadə etsin"**



**Ruslan Salixov: "Bütün bunlar absurd teatra bənzəyir: maskalar çoxdan açılıb, lakin ABŞ hələ də Cənubi Qafqazda vasitəçi rolunu oynamağa çalışır"**



Birləşmiş Ştatlar tərəflərin razılığa gəlməyə üstünlük verdiyi istənilən formatda Bakı və İrəvanla işləməyə hazırdır. Bu qəribə bəyanatı "Amerikanın Səsi"nin erməni xidmətinə ABŞ Dövlət Departamentinin mətbuat xidməti səsləndirib. "Birləşmiş Ştatlar Hökuməti Cənubi Qafqazın təhlükəsizliyi və rifahı üçün vacib olan davamlı və ləyaqətli sülh sazişinə nail olmaq üçün Ermənistan və Azərbaycanın səylərini dəstəkləyir. Biz hər iki tərəfin nə ilə bağlı irəliləyiş əldə edə biləcəyi barədə razılığa gələ bildiyi istənilən formatda hər iki tərəflə işləməyə hazırıq", - Dövlət Departamenti qeyd edib.

Və burada suallardan qaça bilmərik: Co Baydenin istefa verən administrasiyası çox gec özünə gəlib və Bakı ilə İrəvan arasında sülh danışıqlarının taleyi ilə bağlı narahat olmağa başlayıb? Bəs onda niyə, 4 il ərzində Bayden administrasiyası nəinki İrəvanın revanşist istəklərini təşviq etdi, həm də onu fəal şəkildə silahlandırdı? Bu sualları Caliber.Az-ın əməkdaşı xarici politoloq və ekspertlərə verib. Cavabları oxucularımıza təqdim edirik.

Rusiyalı politoloq və Cənubi Qafqaz üzrə ekspert Aleksandr Ryabtsovun fikrincə, Vaşinqtonun bu mesajı kinayəli təbəssüm olmadan qəbul edilə bilməz- bu, çox yersiz səsləndi.

"Ümumiyyətlə, siyasətçilərin postlarını tərk edərkən və ya komanda nümayəndələrinin açıqlamalarına baxmaq həmişə bir az gülməli olur. Burada məqsəd ən çox özü üçün maksimum siyasi bonuslar və üstünlüklər toplamaqdan ibarətdir ki, bu kapitalı sonrakı siyasi oyunlar üçün istifadə etsin. Axı bu siyasətçilərin ölkənin yüksək vəzifəli məmurları vəzifəsindən getməsi ilə onların karyerası bu və ya digər şəkildə bitmir. Yaxşı, əgər Co Baydenin karyerası ilə bağlı hər şey az-çox aydındırsa və o, layiqli təqaüdə çıxmaqdan qaça bilmirsə, amma Ağ Evdən və Dövlət Departamentindən bəzi insanlar Donald Trampın komandasının gəlişi ilə belə, işlərini itirməyəcəklərinə ümid edirlər. Yaxud Demokratlar Partiyasından yeni prezidentliyə namizəd hakimiyyətə gələnə qədər demokratların fəal hissəsinin tərkibində qalmaq. Onu gözləmək, yeni siyasi portfel toplamaq- Amerika siyasətində bu cür rotasiyalar çox yaygındır, ABŞ-da prezidentlik müddəti cəmi 4 ildir; Odur ki, bu cür manevrlər, gecikmiş bəyanatlar gözlənilir və onların heç bir mühüm siyasi mənası olmadığı açıqaydın görünür.

Aydındır ki, Tramp və komandası ABŞ-ın qarşıdakı 4 ildə hansı formada vasitəçilik edəcəyini müəyyən edəcək. Lakin Baydenin rəhbərliyi altında Ağ Evin və ABŞ Dövlət Departamentinin yanaşmaları Vaşinqtonun açıq-aşkar ikili oyunu səbəbindən Bakıda davamlı neqativliyə səbəb oldu; Tramp ABŞ-ın Cənubi Qafqazdakı mövqelərini geri qaytarmağa çalışacaq, lakin çox güman ki, bunu aqressiv şəkildə etməyəcək, çünki bu strategiya iflasa uğradı və Bakı Vaşinqtonun təzyiqinə boyun əymədi",- A.Ryabtsov vurğulayıb.

Qazaxıstanlı politoloq və iqtisadçı Ruslan Salixovun fikrincə, ABŞ Dövlət Departamentinin Co Bayden komandasının "çamadan" əhval-ruhiyyəsi fonunda verdiyi bəyanatı konstruktiv bir şey kimi qəbul etmək çətindir.

"Məncə, belə bəyanatlar verməmək və hətta bu mövzuya toxunmamaq, bu sahədə nəyisə müəyyən etmək üçün estafeti Trampın yeni komandasına ötürmək daha yaxşı olardı- sadəcə olaraq, Vaşinqtonun son 4 ildəki kursu açıq şəkildə olub- Cənubi Qafqazda sülh prosesini pozmağa yönəlib. ABŞ-a inamını itirən Azərbaycan amerikalılardan yəqin ki, soruşa bilər: onlar son illərdə İrəvanı fəal şəkildə revanşizmə sövq edəndə və orada müharibə əhval-ruhiyyəsini gücləndirəndə, fəal hərbi əməkdaşlıqdan danışanda, mühüm vasitəçi və dövlətin mühüm rol oynaya biləcəyi məqamlarda harada idilər? Müəyyən koordinator danışıqlara icazə verə bilmədi? Yeri gəlmişkən, bu fonda ABŞ-ın guya Bakı ilə İrəvan arasında dialoqu inkişaf etdirmək cəhdi ilə bağlı israrlı vasitəçilik cəhdləri xüsusilə gülünc görünürdü. Baydenin rəhbərliyi altında ABŞ ikili oyun oynadı və bu, böyük ölçüdə Bakının kimi - Vaşinqtonu, Brüsseli və ya Moskvanı- təmsil etməsindən asılı olmayaraqbeynəlxalq vasitəçi statusuna münasibətini yenidən nəzərdən keçirmək qənaətinə gəlməsinə səbəb oldu.

İndi, bu bəyanata cavab olaraq, Bakı nəzakətlə Dövlət Departamentindən onun yaddaşını yenidən işə salmağı xahiş edə bilər və bu kömək etməsə, ona xatırlada bilər ki, uzun müddətdir ki, vasitəçilərə ehtiyac yoxdur. İrəvan birbaşa, ikitərəfli formatda kifayət qədər uğurla əlaqə saxlaya bilər. Necə deyərlər, sənsiz də bacararıq. Bütün bunlar absurd teatra bənzəyir: maskalar çoxdan açılıb, lakin ABŞ hələ də Cənubi Qafqazda vasitəçi rolunu oynamağa çalışır", - deyə R.Salıhov bildirib.

***Tərcümə - Elçin Bayramlı***

---

# "Azərbaycan dövləti hadisənin ədalətli və obyektiv araşdırılmasının tərəfdarıdır"

**"Azərbaycan dövləti hər zaman vətəndaşının yanındadır və onların hüquqlarını həmişə müdafiə edir. Bu gün Prezident İlham Əliyevin "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirərkən qəzaya uğramış "Embraer 190" tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçilərlə görüşməsi də bunun növbəti təzahürüdür". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Səbinə Salmanova deyib.**

Onun sözlərinə görə, Azərbaycan dövləti hadisənin ədalətli və obyektiv araşdırılmasının tərəfdarıdır: "Prezident İlham Əliyev təyyarə qəzasında həlak olan ekipaj heyətinin ailə üzvləri və sağ qalan bələdçilərlə görüşündə də bu məsələyə toxundu və söylədi ki, "qara qutu"ların Braziliyaya göndərilməsi ondan xəbər verir ki, biz obyektivlik tələb edirik. Xatırınızdadırsa, dövlətimizin başçısı dekabrın 29-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Televiziyasına müsahibəsində də bildirmişdi



ki, bütün təkliflərə və təkidlərə baxmayaraq Dövlətlərarası Aviasiya Komitəsinin "qara qutu"ları açmasına qəti etiraz olunub. Çünki Dövlətlərarası Aviasiya Komitəsi tərəfindən "qara qutu"lar açılsaydı, burada obyektivlik sual altına düşə bilərdi. Ona görə hər zaman ədalətli mövqe sərgiləyən Prezident İlham Əliyevin təkidi ilə "qara qutu"ların təhlilinə Azərbaycan, Qazaxıstan və Rusiya nümayəndələrinin iştirakı ilə Braziliyada başlanılıb. Əminik ki, yaxın vaxtlarda biz hadisənin ilkin səbəblərini dəqiqliklə öyrənəcəyik".

Deputat bildirib ki, Azərbaycan dövləti həmişə vətəndaşlarının fəaliyyətini, cəsurluğunu və qəhrəmanlığını layiqincə qiymətləndirib: "Dövlətimizin başçısının dekabrın 29-da imzaladığı Sərəncamla sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiklərinə görə, İqor Kşnyakin, Aleksandr Kalyaninov və Hökumə Əliyevaya ölümündən sonra "Azərbaycanın Milli Qəhrəman" adı verildi. Sağ qalan iki ekipaj üzvü - Zülfiqar Əsədov və Aydan Rəhimli isə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olundu. Bütün bunlar bir daha sübut edir ki, həlak olanların hər biri təkcə onun yaxınları, ailə üzvləri üçün deyil, həm də Azərbaycan dövləti üçün əzizdir. Prezident İlham Əliyev təyyarə qəzasında həlak olanların ailə üzvlərinə, eləcə də ekipaj üzvlərinə bu yüksək mükafatları şəxsən təqdim edəndə də bəyan etdi ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaq".

***Ayşən Vəli***



# Müasirlik adı altında mənəvi deqradasiyaya sürüklənmə

"Azərbaycan öz milli-mənəvi kökləri üzərində inkişaf etməlidir, nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq"- İlham Əliyev

***Son dövrlərdə cəmiyyətimizdə bəzi qüvvələr tərəfindən milli-mənəvi dəyərlərə qarşı hücumlar artıb. Bu hücumları təşkil edənlər əxlaqi kriteriyalara, mənəvi dəyərlərə qarşı təbliğat aparır, öz əxlaqını, vicdanını, namusunu- ailə dəyərlərini qoruyan insanlara geridəqalmış kimi baxırlar.***

## Milli-mənəvi dəyərlər elmi-texniki inkişafa mane olurmu?

Avropa, Qərb dəyərləri adı altında bəzi beynəlxalq və yerli mərkəzlər tərəfindən bizə sürətlə və ardıcıl sırınan dəyərlərin mənəvi tərəfləri faciədir. Bu mənəvi deqradasiyanın Qərb cəmiyyətlərini hansı sosial-mənəvi nəticələrə gətirib çıxardığı haqda çoxsaylı faktlar və elə Qərb tədqiqatçılarının bu mövzuda sanballı əsərləri var.

Qloballaşma prosesində birtərəfli inteqrasiya ciddi problemlərə yol aça bilər. Bəzi dairələr bəzi Qərb ölkələrinin iqtisadi və texniki inkiafını əsas götürüb bizim də onların mənəvi dəyərlərini qəbul etməyimizə çağırırlar. Bunu çox vaxt maddi, texnoloji inkişafla bağlayıb deyirlər ki, görürsünüzmü, Qərb ölkələri mənəvi dəyərləri kənara qoyublar deyə necə inkişaf ediblər.

Lakin bir ağıllı çıxıb onlara Yaponiyanı nümunə göstərəndə boğazları quruyur. İndi necə izah etsinlər ki, yaponların timsalında bir xalq öz dəyərlərini, mədəniyyətini, dinini, ənənələrini, əxlaqını qoruyaraq da dünyanın ən inkişaf etmiş xalqına çevrilə bilir. Daha bir belə nümunə kimi Çini göstərmək olar. Tərslikdən də, Çin və Yaponiya Qərbdə yox, Şərqdə yerləşirlər. Deməli, elmi-texnoloji, sosial-iqtisadi inkişaf üşün heç də Qərbin mənəvi kriteriyalarını qəbul etmək vacib deyil. Beləliklə, Qərb dairələrindən ayrılan qrantlarla təşkil olunan "azad qadın" aksiyalarının nə məqsədə xidmət etdiyi aydındır. Qısası, bu arqumentə bir quş.

## İnsan hüquqları, yoxsa anarxik əxlaqi deqradasiya?

İkinci arqument insan hüquqları adı altında cəmiyyətimizə sırınan dəyərlərdir. Məsələn, qadın hüquqları, uşaq hüquqları, cinsi azlıqların hüquqları və s. Mən başa düşmürəm, bizim cəmiyyətdə qadınlar, uşaqlar, xəstələr kimsə tərəfindən əzilirmi? Psixi xəstələr tərəfindən edilən tək-tük kriminal hərəkətləri nəzərə almasaq, xeyr!

Kişilərin həmişə onlara diqqətlə, qayğıyla, fədakarlıqla yanaşdığını görmüşük. Azərbaycan qadını həm evinin, ailəsinin xanımı olub, həm də cəmiyyətə xeyirli ictimai fəaliyyət göstərib. Qadın azadlığı budur, indi kommersiya TV-lərində, seriallarda təbliğ olunanlar deyil. Məncə, bir xanımın elmi ixtiralar etməsi üçün onun 1 qarışlıq mini-yubkada gəzməsi və ya müxtəlif kişilərlə qeyri-qanuni münasibətlərdə olması tələb olunmur.

Bizim ailə institutumuzda və cəmiyyətimizdə qadının, qızın öz layiqli yeri var. Amerikalı və avropalıya azərbaycanlı kişinin öz anası, xanımı, bacısı, qızı uğrunda düşünmədən canını qurban verməsi bəlkə qəribə gələr, amma bizdə bu, müzakirəsi belə mümkün olmayan avtomatik reaksiya hesab olunur.

Bizdə uşaqlar döyülüb öldürülürmü? Xeyr! Sadəcə, valideyn bəzən tərbiyəsi pozulmasın deyə uşağına qulaqburması verir. Əks halda, həmin uşağın axırı hippiyə, emoya, ən yaxşı halda cinayətkara və ya narkomana çevrilər. Uşağını qorumaq, onun tərbiyəsinin pozulduğunu gördükdə cəzalandırmaq valideynin borcu və haqqıdır.

Məgər dövlət cinayət törədən vətəndaşı cəzalandırmırmı? Məgər bəzi qayda və qanunlar, tələblər havayı yerəmi qoyulub? Məgər valideynin öz uşağını danlamağa, qulaqburması verməyə haqqı çatmamalıdır? Bəlkə 15 yaşlı qızcığaz gecə saat 3-də pritondan atasına zəng eləyib desin ki, mənim bəzi vacib işlərim var, özüm kefim istəyəndə evə gələcəm? Xeyr, bunlar hüquq deyil, anarxiyadır, mənəvi deqradasiyanın kulminasiyasıdır. Kəsəsi, bu arqumentə də bir quş.



## Cinsi azlıqların üstün hüquqları olmalıdır?

İndi isə keçək yad dəyərlərin təbliğatçılarının ən yaralı yerlərindən birinə- cinsi azlıqların hüquqları məsələsinə. Bizim cəmiyyətdə cinsi azlıq nümayəndəsi şallaqlanırmı, ya da ictimai yerlərdən qovulurmu? Xeyr! Sadəcə onlar cəmiyyətə nümunə göstərilib başa çıxarılmır. Onlara vəziyyətdən asılı olaraq ya xəstə kimi, ya da əxlaqi cəhətdən pozğun adam kimi baxırlar. Ən əsası, onlar digər vətəndaşların istifadə etdiyi bütün sosial və sair hüquqlardan yararlanırlar. Bəlkə onlara, eyni işə görə normal adamlardan az maaş verilir, bəlkə onlar əmlak, sosial təminat, əmək hüququ məsələlərində ayrı-seçkiliyə məruz qalırlar? Xeyr.

Yaxşı, bəs onda nə deyib bizim ailə institutumuzu dağıtmaq, cəmiyyət əxlaqını dəyişmək istəyirlər? Çətin sualdır. Bunu bu işlə ciddi məşğul olan şəbəkənin nümayəndələrindən soruşanda boğazları quruyur.

Dəyərlər dəyişib, dəyişir, dəyişəcək. Amma bu dəyişmə mütləq mənfi istiqamətdəmi olmalıdır? Müsbətə doğru dəyişmək olmazmı? Məgər mənəvi-əxlaqi dəyərlər maddi nemətlərdən istifadə, iqtisadi inkişaf, sosial ədalət, elmi-texniki tərəqqi üçün problem yaradır? Yuxarıdakı nümunələrdə gördüyümüz kimi, yaratmır!

Deməli, inkişaf üçün milli-mənəvi dəyərləri itirməyə, onu yad dəyərlərlə əvəzləməyə ehtiyac yoxdur. Hər mədəniyyətin özünün psixoloji-ruhi-mənəvi dəyərlər sistemi var. Elmi-texnoloji, sosial-iqtisadi inkişafın bura heç bir dəxli yoxdur. Olsaydı, konservativ Yaponiya və ideoloji Çin ilə rasional Amerika və novator Avropa arasında bu sahələrdə fərq olardı. Bəs onda nə baş verir? Əslində, nə baş verdiyi, necə baş verdiyi yox (bunlar məlumdur), niyə baş verdiyi müzakirə obyektidir.

Mənə şəxsən aydın deyil, inkişaf etmək üçün mənəvi dəyərləri yad mədəniyyətlərdənmi qəbul etməliyik, özümüzünkü yaramırmı? Yaramırsa, niyə misal üçün Sovet dövründə, həm dəyərlər qorunurdu, həm də ictimai, sosial, mədəni, elmi, texnoloji inkişaf gedirdi? Elə indi də, milli-mənəvi dəylərlərimiz elmi-texniki inkişafımıza heç bir problem yaratmır.

## Əxlaqsızlığın təbliğinə görə sərt cəzalanma olmalıdır

Ümumiyyətlə, ölkədə qadın alverinin, narkotikanın, digər zərərli və təhlükəli halların təbliği, hətta internetdə təhqir qadağandırsa, onda fahişəliyin təbliği də qanunla qadağan olunmalıdır. Mətbuat Şurası, Milli Teleradio Şurası mediada mənəvi dəyərlərə təcavüzə qarşı daha ciddi tədbir görməlidir. Bu, bir milli təhlükəsizliik məsələsidir.

Dövlətimiz milli-mənəvi ideoloji baza üzərində inkişaf siyasəti yürüdür. Bu siyasət milli-mənəvi dəyərləri qoruyaraq dünyaya inteqrasiya etməyi özündə ehtiva edir. Yazımı Prezident İlham Əliyevin bu məsələlərə həsr olunmuş çıxışından bir fraza ilə yekun vurmaq istərdim:

"Biz milli-mədəni dəyərlərimizi gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar bu "qloballaşma" sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq, bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd.

Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun...

Bəzi hallarda belə sözlər işlədilir ki, biz inteqrasiya etməliyik, Avropaya inteqrasiya etməliyik. Mən artıq dəfələrlə demişəm, biz heç yerə inteqrasiya etməməliyik. Biz öz milli dəyərlərimiz üzərində möhkəm dövlət, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Xüsusilə, indiki ayrı-seçkilik, islamafobiya dövründə inteqrasiya etməyə heç bir ehtiyac yoxdur. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Bax, Azərbaycan belə inkişaf etməlidir... Nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq"...

Məncə əlavə şərhə ehtiyac yoxdur.

*Elçin Bayramlı*

# Tarixi həqiqəti bərpa etmək haqqımızdır

Azərbaycanlılar öz əzəli yurdlarından regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalıblar. Ermənilərin "tarixi əzəli torpaqları"nı yaratmaq siyasəti mərhələ-mərhələ həyata keçirilib. Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı ərazisində kiçik Ermənistan Respublikasını yaradıb, tədricən onun ərazisini böyüdüblər. Tarixdən bəllidir ki, İran və Rusiya arasında "Gülüstan", "Türkmənçay", Rusiya və Türkiyə arasında "Andrianopol" müqaviləsi imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib. Torpaqları zəbt olunan azərbaycanlılar isə süni şəkildə qaçqın və məcburi köçkün vəziyyətinə salınıblar.

1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üz-üzə gəlir. Vaxtilə Rusiyanın tərkibinə Azərbaycan xanlığı kimi daxil olmuş İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq ideyası ortaya atılır. Həmin dövrdə Azərbaycan siyasətçiləri tarixi şəraitə uyğun olaraq bir sıra güzəştlərə getməyə məcbur olurlar. Ermənipərəst qüvvələrin və millətçilərin yürütdükləri məkrli siyasət nəticəsində 1923-cü ildə Azərbaycanın az sayda ermənilərin yaşadığı ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır. Bundan sonra azərbaycanlıların öz doğma ocaqlarından zorla qovulması və onlara qarşı etnik təmizləmə siyasətinin yeni mərhələsi başlanır. Nəticədə XX əsrin müxtəlif dövrlərində iki milyona yaxın soydaşımız öz tarixi torpaqlarından qovulur, etnik təmizləmə siyasətinin qurbanına çevrilərək didərgin salınırlar.





## ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ

Azərbaycanın tarixi mahalı olan Zəngəzur da erməni işğalçılıq siyasətinin qurbanına çevrilir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Muğru, Zəngilan, Qubadlı və Laçını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk kəndi, 91 kürd kəndi və 81 erməni kəndi var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon müsəlman həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olunmuşdu. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

Tarixi proseslərin davamı olaraq iyirminci əsrin sonunda 1988-ci ildən başlayaraq Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Zəngəzurda, Göycədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilmişdir.

## "BİZ AZƏRBAYCANLILAR BÜTÜN TARİXİ TORPAQLARIMIZA QAYIDACAĞIQ"

Tarixi Azərbaycan ərazisində çoxsaylı qalalar, qala-şəhərlər, hərbi istehkam obyektləri mövcud olmuşdur. Bu gün Ermənistan Respublikasının ərazisində qalan Zəngəzur tarixi Azərbaycan torpağıdır. Mənbələrdə, müxtəlif səyyahların yazılarında göstərilir ki, Zəngəzur türklərin qədim yurd yeri olub. Zəngəzurdakı türk mənşəli toponimik adların çoxluğu da bu fikri təsdiqləyir. Xalqımıza qarşı həyata keçirilən tarixi ədalətsizlik öz qiymətini alacaq. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, Azərbaycanın əzəli torpağı olan Zəngəzurun Azərbaycandan ayırıb Ermənistana verilməsi böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır, - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev Zəngəzurun tarixi dövrdəki əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılar olduğunu bildirib. Təbii ki, mənbələrdə göstərildiyi kimi, Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları olub. Tarixi ədalətsizliyin sağalmayan yara olduğunu qeyd edən Cənab İlham Əliyev "vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq "- deyə əminliyini ifadə edib. Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində indi Ermənistan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etməyi haqqıdır.

Bu gün əzəli torpağımız olan İrəvanda tarixi mədəniyyət abidələrimiz dağıdılıb, məhv edilibdi. Belə ki, indi Ermənistan Respublikası adlanan tarixi Azərbaycan ərazisində çoxsaylı qalalar, qala-şəhərlər, hərbi istehkam obyektləri mövcud olmuşdur. Orta əsrlər dövrünə və Rusiya işğalı dövrünə aid ədəbiyyatlarda indiki Ermənistan ərazisində mövcud olmuş və hərbi istehkam xarakteri daşıyan İrəvan qalası, Keçi qalası, Sərdarabad qalası, Talın qalası, Gümrü qalası, Şörəyel qalası haqqında məlumatlar verilir. Oradakı Dəmir Bulaq məscidi yerlə yeksan edilib, Göy məscidin isə orijinal görünüşünü dəyişdirilmək məqsədilə yenidən təmir olunub. Rəcəb Paşa məscidi, Hacı Cəfər bəy məscidi, Novruzəli bəy məscidi tamamən dağıdılmışdır.




Sərdar məscidi (1510-1918-ci illər) Sovet Ermənistanı dövründə hissə-hissə sökülərək onun yerində yaşayış evləri tikilib. İrəvanın mərkəzindəki Sərdar məscidi də sistematik olaraq dağıdılıb və 2014-cü ildə yerə yeksan edilib.

Qeyd edək ki, 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

Bu və ya digər tarixi abidələrimiz sırasında ən möhtəşəm olanı və tədqiqatlarda indi də tez-tez adı çəkilən qala İrəvan qalasıdır. Tarixi mənbələrdə göstərilir ki, İrəvan qalası haqqında ilkin yazılı məlumat Səfəvilər dövrünə aiddir. İstər Səfəvilərin, istər Nadir şahın, istər Qacarların, istərsə də Osmanlıların hakimiyyəti dövründə İrəvan hakimlərinin, bəylərbəylərinin və xanlarının iqamətgahı İrəvan qalasında olmuşdur.

## BAŞLICA MƏQSƏD TARİXİ-MEMARLIQ ABİDƏLƏRİNİ YER ÜZÜNDƏN SİLMƏKDƏN İBARƏT OLMUŞDUR

İrəvan qalasının ruslar tərəfindən işğalından sonra qala dövlət mülkiyyəti elan edilmişdi. XIX əsrin 30-cu illərində İrəvan qalasındakı 120-dən artıq binada müxtəlif təyinatlı dövlət müəssisələri və təşkilatlar yerləşirdi.

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1924-cü ildə şəhərin baş planı təsdiq edilmişdir. Baş planın başlıca məqsədi azərbaycanlılara məxsus olan tarixi-memarlıq abidələrini yer üzündən silməkdən ibarət olmuşdur. 1936-cı ildə İrəvanın yeni baş planı hazırlanmışdır və onun həyata keçirilməsi nəticəsində qalanın içərisində müasir tipli hündürmərtəbəli binalar inşa edilmişdir.

İrəvan qalasının həmyaşıdları - Bakıda İçərişəhərin qala divarları, onun içərisindəki Şirvanşahlar sarayı, Şəkidə Xan sarayını əhatə edən qala divarları bu gün də yaşayır və keçmişdən bu günə soraq verirlər. Mənbələrdə qeyd olunur ki, hazırda İrəvan şəhər tarix muzeyində müasir erməni memarları tərəfindən hazırlanmış İrəvan qalasının maketi nümayiş etdirilir. Maketdən görünür ki, heç də qalada mövcud olmuş bütün tikililər orada öz əksini tapmamışdır. Həmçinin həmin muzeydə qalanın ruslar tərəfindən işğalından sonra ələ keçirildiyi iddia edilən "İrəvan qalasının açarı" da nümayiş olunur.

Qədim tarixi olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Uruda daxil olan Urud qalası Urud kəndi yaxınlığında yerləşən tarixi türk qalasıdır. Xatırladaq ki, 1968-ci ildə ermənilər Urud kəndinin adını dəyişərək Vorotan, Urud qalasının adını isə Vorotanberd qoymuşlar. Urud kəndində 1988-ci ilə kimi yalnız Azərbaycan türkləri yaşamışlar. Bu kənddə ermənilərin ilk məskunlaşması 1988-ci ildən sonra olmuşdur.

Onu da qeyd edək ki, abidələr kompleksinin ən mühüm hissəsi isə Urud kəndi yaxınlığındakı orta əsrlər Azərbaycan məzarlığıdır. Məzarlıqda bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuşdur. Qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Məzarlıq ermənilər tərəfindən dağıdılıb, Urud qalasının yalnız xarabalıqları qalır.

Əlbəttə ki, göründüyü kimi, İrəvan şəhərində tarixi-memarlıq abidələrinə, dini ocaqlarımıza olan təcavüz xalqımızın tarixi keçmişini yer üzündən silmək məqsədi daşıyıb.

***Nəzakət ƏLƏDDINQIZI***

# Əli Kərimli Leyla Yunusla birgə yeni işə başlayır

Azərbaycan cəmiyyətinin sosial-iqtisadi cəhətdən inkişafı təbii olaraq hər bir ailənin təminatı, təhlükəsiz, sağlam yaşayışı deməkdir. Dövlətimizin həyata keçirdiyi uğurlu siyasəti nəticəsində insan hüquq və azadlıqlarının müdafiəsində və insanların daha yaxşı və firavan yaşamasında müsbət nəticələr əldə olunub. Görülən və həyata keçirilən işlərin nəticəsidir ki, bu gün Azərbaycan vətəndaşları dünyada ən yaxşı yaşayışa malik vətəndaşlar hesab olunurlar. Lakin təəssüf hissi ilə vurğulamaq lazımdır ki, dağıdıcı müxalifət görülən fundamental işlərə kölgə salmağa çalışır. Bu azmış kimi Azərbaycanın Ermənistan üzərində hərbi, siyasi, diplomatik qələbəsindən Avropanın və ABŞ-ın bəzi qaranlıq dairələri qədər dağıdıcı müxalifət də narahatdır.



Bu isə haqlı suallar yaradır: Niyə Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı və digərləri ölkəmizin deyil, xarici məkrli dairələrin mövqeyindən çıxış edirlər? Nədən dağıdıcı müxalifət Azərbaycanın haqlı mövqeyini dəstəkləmir? Şübhəli və mübhəmli suallar kifayət qədərdir. Sadəcə, birmənalı ifadə olunan fikir ondan ibarətdir ki, dağıdıcı müxalif ünsürlərin tez-tez səsləndirdikləri "Vətən", "Xalq" sözləri sadəcə siyasi divident əldə etmək üçün deyilir. Əslində, xalqdan uzaqdırlar, dövlətə qarşı laqeyiddirlər. Onlar üçün başlıca hədəf və məqsəd ölkəmizin imicinə xələl gətirilmək və erməni lobbisinin istəyinin yerinə yetirilməsidir. Bunun adı isə satqınlıq və xəyanətdir. Həmin satqınlar hələ 2020-ci ilin iyulunda Tovuz rayonu erməni terrorçuları tərəfindən intensiv atəşə məruz qalarkən 43 siyasi partiyanın hazırladığı "Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi son təxribatları ilə əlaqədar siyasi partiyaların milli həmrəyliyə dair" bəyanatını imzalamaqdan imtina etmişdilər. 44 günlük Vətən Müharibəsi zamanı bir neçə dəfə siyasi partiyalar bir araya gəlib beynəlxalq təşkilatlara Ermənistanın vandal hərəkətləri və dinc sakinlərin raket atəşinə tutulmasına etiraz əlaməti olaraq bəyanatlar, müraciətlər ünvanladıqları zaman Müsavat və AXCP həmin müraciətlərə qoşulmaqdan imtina etdilər. Prezident Administrasiyasında siyasi partiyaların rəhbərləri ilə keçirilən görüşlərdə AXCP və Müsavat funksionerləri qatılmadılar. Hətta siyasi dialoq çağırışlarına da əhəmiyyətsiz yanaşdılar. Bu azmış kimi, AXCP siyasi arenada yeganə partiyadır ki, 2024-cü il sentyabrın 1-də keçirilmiş parlament və 2025-ci il yanvarın 29-da baş tutacaq bələdiyyə seçkilərində iştirak etməkdən imtina edib. Bütün bunlar onların şər qüvvələrdən asılı olduqlarını göstərir.

## Dağıdıcı ünsürlərin istəkləri sifarişləri yerinə yetirmələri qarşılığında pul qazanmaqdır

Söz yox ki, anti-Azərbaycan dairələrin ölkəmizin parlaq qələbələrindən nəyə görə narahat olduqları başa düşüləndir. Çünki onlar birbaşa erməni maraqlarından çıxış edən və daim ermənilərə hərbi, siyasi dəstək göstərən mərkəzlər olublar. Bu gün də öz xislətlərinə uyğun fəaliyyətlərini davam etdirirlər. Lakin dağıdıcı müxalifət funksionerlərinin və onların qazanclarının dibini yalayan trolların fəaliyyətləri anlaşılan deyil. Şübhələr, həm də ehtimallar yaradır ki, bu müxalif məxluqlar birbaşa erməni lobbisindən sifarişlər alırlar. Bu şübhələri gücləndirən başlıca məqam "Milli Şura"nın sədri Cəmil Həsənlinin müsahibələrinin birində "hər ay Soros fondundan 200 ABŞ dollar məvacib almışam", - deyə bildirməsidir. Söz yox ki, C.Soros nə dəli, nə də gic deyil. Soros və digərləri sifarişlərini icra etməyən şəxslərə və ya qruplara qarantlar ayırmaz. Əgər dağıdıcı müxalifət xarici qrantlardan bəhrələnirlərsə, deməli, ortada tərəflər arasında əldə olunan razılaşma var: Yəni dağıdıcı ünsürlərin istəkləri pul qazanmaqdırsa, xarici məkrli dairələrin də hədəfləri dünyanın əsas güc mərkəzlərindən birinə çevrilməkdə olan Azərbaycana qarşı təzyiq və təhdid siyasətinə nail olmaqdır. AXCP sədri Əli Kərimlinin daha çox qrant əldə etmək arzusu onun gözlərini kor, qulaqlarını kar edib. Bu səbəbdən də ölkəmizdə gedən genişmiqyaslı tikinti, quruculuq, bərpa işlərini görmür, həm də beynəlxalq təşkilatların Azərbaycanın sosial-iqtisadi, maliyyə sahəsində əldə etdiyi nailiyyətlərdən bəhs edən müsbət xarakterli hesabatlarını eşitmək istəmirlər. Onların ki, ancaq məğzini və mahiyyətini anlamadıqları sifarişləri hansı formadasa yerinə yetirməyə nail olmaqdır.



Düzdür, Ə.Kərimli xarici qrantlardan tam şəkildə məhrum olmur. Ancaq hər an belə bir təhlükə ilə üzləşə bilər. Bu səbəbdən də Ə.Kərimli gözlənilən problemi aradan qaldırmaq üçün trollarına qarşı sərt tədbirlər həyata keçirir. Hətta adının çəkilməsini istəməyən mənbəmizin dediyinə görə, son hadisələrdən sonra Ə.Kərimli bəzi şəxslərə çatmalı olan aylıq məvacibinin müəyyən hissəsini kəsib. Bu da daxili narazılığın yaranmasına gətirib çıxarıb. Elə trollar var ki, onlar sosial şəbəkələrdə ənənəvi işlərini görməkdən imtina edirlər və ya təhqiredici statuslarını sətHi həyata keçirirlər. Bu da bəzi hallarda Ə.Kərimli ilə trollar arasında narazılıqların yaranmasına gətirib çıxarır. Ə.Kərimli isə narazıları hörmətsiz münasibət göstərməklə tənbeh etməyə cəhd edir. Hətta maraqlarına qarşı çıxanlar, sifarişlərini icra etməkdən müxtəlif bəhanələrlə yayınanlar ciddi şəkildə cəzalanırlar. Misal olaraq, AXCP MNTK-nın sədri Aydın Əliyevin Ə.Kərimlinin qərarı ilə partiya sıralarından xaric edilməsini göstərmək olar. Elə cəbhəçilər də var ki, Ə.Kərimlinin qurbanına çevrilmək halları ilə də üzləşirlər. Yəni Ə.Kərimlinin yağlı dilinə, şirnikləndirici vədlərinə aldanaraq qanunazidd əməllər törədirlər. Nəticədə qanunun sərt dili işə düşür və şəxs azadlıqdan məhrum edilir. Ona görə də, AXCP sıravi üzvlər üçün bataqlıq mənbəyi hesab olunur.

## Ə.Kərimli ilə L.Yunus daha geniş formada əməkdaşlıq əlaqələri qurmaq üçün fikir mübadiləsi aparıb və razılaşmalar əldə ediblər

Xaricdən ayrılan maliyyə vəsaitlərindən vaz keçmək istəməyən Ə.Kərimli qanunsuz əməllərə baş vuracağına, ölkədə təxribatlara yol verəcəyinə, pozuculuq aktları törədəcəyinə dair böyük ağaları qarşısında üzərinə öhdəliklər götürür. Təbii ki, pul alınıbsa, tapşırıqlar da yerinə yetirilməlidir. Ə.Kərimli tapşırıqları yerinə yetirmək üçün məram və məqsədlərini anlamayan cəbhəçi gənclərdən istifadə edir. Nəticədə yuxarıda qeyd etdiyimiz kimi, qanunsuzluq edən gənc həbs olunur və məhkəmənin qərarı ilə azadlıqdan məhrum edilir. Sonradan Ə.Kərimli hay-küy qaldırıb, həmin gəncin həbs olunmasının ədalətli olmadığını iddia edir. Hətta özünü "yaxşı adam" kimi göstərmək üçün həmin həbs olunan gəncin adını "siyasi məhbus" siyahısına salır. Anormal əməlləri bununla da bitmir. "Bizim övladımızı sən qanunsuz əməllərə təhrik etdin", - deyə həbs olunan gənc cəbhəçilərin valideynlərinin ittihamlarından yayınmaq üçün tərtib etdiyi qondarma "siyasi məhbus" siyahısını Avropada erməni diasporuna sığınıb, Azərbaycanla bağlı sifarişli açıqlamalar yayan Leyla və Arif Yunuslara göndərir. Bütün varlıqlarını ermənilərə təslim etmiş cütlük dərhal Ə.Kərimlinin məktubunu Avropadakı anti-Azərbaycan dairələrə, o cümlədən də Almaniya nasistlərinin əsas ideoloqlarından olan Frank Şvebere təqdim edirlər.

Xatırlatmaq lazımdır ki, bir qədər əvvəl F.Şveber BBC-yə açıqlamasında bildirmişdir ki, o, tez-tez Leyla Yunusdan Azərbaycandakı vəziyyətlə bağlı məktublar alır. Təbii ki, L.Yunus kimi erməni kökənli məxluq erməni lobbisindən maliyyən F.Şvebere Azərbaycandakı genişmiqyaslı quruculuq abadlıq işlərindən, sosial -iqtisadi inkişafdan, COP29 kimi beynəlxalq miqyaslı nüfuzlu konfransın Azərbaycanda möhtəşəm formada keçirilməsindən yaza bilməz. Onun ki, ancaq erməni diasporunun istədiyi və Ə.Kərimlinin də bu istəyə uyğun ona ünvanladığı qarayaxmalar, şər və böhtanlar ola bilir ki, bütün bunları da L.Yunus böyük həvəslə yerinə yetirir. Məlumata görə, Ə.Kərimli ilə L.Yunus daha geniş formada əməkdaşlıq əlaqələri qurmaq üçün fikir mübadiləsi aparıb və razılaşmalar əldə ediblər. Bu isə o deməkdir ki, Ə.Kərimli təxribatlarının və pozuculuq əməllərinin sayını bir qədər də artıracaq. Yenə də əziyyət çəkən, bir növ nələrin baş verəcəyini anlamayan cəbhəçilər olacaq.

***İLHAM ƏLİYEV***

# Narsist kişiləri kim yetişdirir?

*PSİXOLOQ FİKRİ*

"Narsizmin inkişafında yalnız anaların rolu yoxdur. Yəni bu birtərəfli yanaşmadır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytəkin Məmmədova deyib. Psixoloq sözlərinə belə davam edib: "Narsizm insanın həddindən artıq özünü sevməsi, bəyənməsi kimi özünü göstərir və əsas əlamətləri narsizmdə bir başqasının dəyərsizləşdirmə, bəyənməmə, sui-istifadə etmə, aşağı görmədir. Həddindən artıq çox diqqət mərkəzində olmağı sevirlər, empatiya qura bilmirlər, bir başqasının risk və düşüncələrini qəbul edə bilmirlər.

Bəs, narsizm necə olur ki yetişir? Necə olur ki narsizm formalaşır? Daha doğrusu narsist bir şəxsiyyət formalaşır. Ümumiyyətlə narsizm öz sevgi olduğu üçün hər birimizdə var. Yəni, özünü sevmək narsizmin narsistlik xüsusiyyət deyil, amma narsizm adlandırılır. Sadəcə burada hansı şəraitdə narsizm patalogiyaya çevrilir. Bu barədə demək istəyirəm. Deməli narsizm ailə daxilində iki cür formalaşa bilər, ya uşağa həddindən artıq hər istədiyini etmək, diqqət, qayğı vermək, hər şeyi ən xırda detalına qədər uşağın gözü qarşısında qoymaq, onun hər şeyi ilə çox maraqlanıb həssas yanaşmaqdır. Tutalım ki, uşaq bir şeyi istəyir həmin o şeyi uşağa ziyan da olsa sırf o istəyib deyə onun dediyi bir növ bu qayda-qanundur və olur. Əslində olmalı deyil. Biraz burada böyütmə də var, ucaltma var. Azərbaycan ailələrində xətrinə dəyməmək, uşaqdır hər istədiyini etmək, ya da hansısa ən dəyərli insanın adını qoyurlar. O ada görə o uşağın hər istədiyi həyata keçir.



Bunun tamam əksi də olan bir tərəfi də var. Uşaqlar ev daxilində həddindən artıq çox müqayisə olunurlar, dəyərsiz hiss etdirirlər, duyğuları qəbul olunmur, heç bir təqdir sözü ilə uşağı yetişdirmirlər, dəyərsizləşdirirlər. Burada da nə olur? Uşağın daxilində qəribə bir natamamlıq yaranır və bu natamamlığı aşmaqdan ötrü özünün hansısa xüsusiyyətini böyüdür, onunla güc qazanır və digər insanları aşağılamaya başlayır, bir növ hisslərini belə ifadə edir, onları görməməyə başlayır, ancaq mən elədim, mən bacardım kimi bir şəxsiyyətə çevrilir. Burada da təbii ki emosional ehtiyacların ödənilməməsi fakt olaraq ortadadır.

Əsasən ana və atalarda görünən ən böyük problemlərdən biri uşağın emosional ehtiyaclarının qarşılanmamasıdır, dəyərsiz hiss etdirmədir. Bizdə biraz uşaqların tərbiyəsində qadınlar daha çox rol oynadığı üçün qadınların birbaşa narsist uşaq böyütdüyünü göstəricisi olaraq verirlər. Amma burada incə bir nüans var ki əgər ev daxilində ata narsistlik xarakterinə, xüsusiyyətinə sahibdirsə oğulun kişi modeli atadır və onun davranışlarını götürmək ehtimalı çox yüksəkdir. Yəni atanı rol model olaraq götürür və seçirsə deməli biz burada baxa bilərik ki ananın hansısa tərbiyə sistemində problem var ata narsist şəxsiyyətə sahibdirsə burada artıq bir patalogiya yaranır. Amma ümumən cəmiyyətdə narsist oğlanların böyüməsi bizim tərbiyə sistemimizdə göstərilən bir haldır. Tərbiyə necə edilməlidir? Analar oğlanlarını necə tərbiyə etməlidir? Analar oğlanlarını tərbiyə edərkən birinci olaraq tərbiyə sisteminə baxmaq lazımdır. Ailədaxili bir-birilərinə ünsiyyətə baxmaq lazımdır. Əgər atada narsistlik şəxsiyyət varsa təbii ki bunlar birinci ana və atanın özlərinin mental sağlamlığı lazımdır. Amma uşaq daima müqayisə olunursa, cəzalandırılırsa, təhqir olunursa, tənqid olunursa çoxlu şəkildə bu uşağın tərbiyəsində ciddi bir problem yarana bilər. Çox vaxt valideynlər fikirləşirlər ki mən tənqid edim ki uşaq gələcəyinə düz olsun, yox əksinə hər uşaqda işə yarayan metod deyil. Həddindən artıq çox tərifləmək də olmaz. Yəni həddindən artıq çox təriflənəndə uşaq elə bilir ki artıq ən uğurlu mənəm, ən yaxşı mənəm, hamı pisdir mən yaxşıyam kimi düşünə bilər. Sadəcə bir ədədi ortanı qədərində və yerində tərbiyə sistemini formalaşdırsalar faydalı olar".

***Ayşən Vəli***

# Trampın ərazi iddialarına DÜNYADAN REAKSİYA

*Donald Tramp dünyanın siyasi xəritəsini yenidən cızacaqmı?*

***Donald Tramp Kanadanın ABŞ dövlətinə çevrilməsini təklif, Danimarkadan Qrenlandiyanı satmağı tələb və Panama kanalının taleyini Panama hakimiyyəti ilə müzakirə edir. Donald Tramp iki həftədən sonra yenidən ABŞ prezidenti vəzifəsinin icrasına başlayacaq və eyni anda bir neçə ölkənin torpaqlarına ərazi iddiası ilə bağlı bəyanatları ilə artıq bütün dünyanı qorxudur. Bəzi iddialar yeni deyil, lakin Trampın sözlərinə reaksiya son dərəcə sərt olub.***

## Kanada

Tramp hesab edir ki, bir çox kanadalılar öz ölkələrinin Amerikanın 51-ci ştatı olmasını istəyirlər. "Birləşmiş Ştatlar daha böyük ticarət kəsirlərinə və Kanadanın ayaqda qalması üçün lazım olan subsidiyalara dözə bilməz. Castin Trüdo bunu bildi və istefa verdi", - Tramp özünün "Truth" sosial şəbəkəsində yazıb.

ABŞ-ın seçilmiş prezidentinin fikrincə, amerikalılar və kanadalılar birlikdə böyük bir ölkə təşkil edəcək, vergilər aşağı salınacaq, ticarət tarifləri ləğv ediləcək və hər iki ölkə (daha doğrusu, indi bir ölkə) Rusiya və Çin hərbi gəmilərindən tamamilə qorunacaqdı.

Eyni zamanda, Tramp Kanadadan idxala 25% rüsum tətbiq etməyə hazırlaşır və dövlət başçısı kimi ilk günündə belə bir fərmanı imzalayacağını vəd edir. Kanadanın baş naziri vəzifəsini icra edən Trüdu Kanadanın ABŞ-ın bir hissəsi olmasının "cəhənnəmdə qartopu şansının" olmadığını söyləyib. Kanada Xarici İşlər Naziri Melanie Joly X-də qeyd edib ki, Tramp "Kanadanı güclü bir ölkə edən şeyin tam şəkildə anlaşılmamasını" nümayiş etdirir. "Bizim iqtisadiyyatımız güclüdür. Xalqımız güclüdür. Biz təhdidlər qarşısında heç vaxt geri çəkilməyəcəyik", o yazıb.














Trüdonun açıqlaması Trampın rəhbərliyi altında hökumətin səmərəlilik departamentinin rəhbəri vəzifəsini icra edəcək İlon Maskın son dərəcə sərt cavabı ilə qarşılanıb. "Qız, sən daha Kanada qubernatoru deyilsən. Sizin fikrin artıq əhəmiyyət kəsb etmir". Trudeau daha əvvəl Amerika ştatlarının başçılarının tutduğu vəzifəyə istinad edərək Trampı Kanadanın qubernatoru adlandırmışdı.

## Qrenlandiya

Trampın digər ərazi iddiası dünyanın ən böyük adası və Danimarkanın tərkibində muxtar bölgə olan Qrenlandiyadır. Milad ərəfəsində Tramp bəyan etdi ki, Qrenlandiyaya sahiblik və nəzarət ABŞ üçün mütləq zərurətdir. "Qrenlandiya bizimdir. Biz satışda deyilik və heç vaxt satılmayacağıq. Qrenlandiyanın baş naziri Mute Egede "Azadlıq uğrunda uzun mübarizəmizi itirməməliyik" deyib.

Qrenlandiya muxtar bölgəsinin də daxil olduğu Danimarka daha sonra Qrenlandiyanın müdafiəsi üçün xərcləri əhəmiyyətli dərəcədə artırdığını açıqlayıb. Bundan əlavə, yanvarın 6-da Danimarka kralı Qrenlandiya və Farer adalarının heraldik simvollarının - ayı və qoçun daha böyük və daha aydın görünməsi üçün krallığın gerbinin dəyişdirilməsini əmr edib.

Trampın bəyanatı yeni seçilmiş prezidentin oğlu, kiçik Donald Trampın Qrenlandiyaya getməsi ilə bağlı xəbərlər fonunda verilib. Çərşənbə axşamı, yanvarın 7-də o, şəxsi təyyarəsi ilə Qrenlandiyanın paytaxtı Nuuk şəhərinə gəlib. Kiçik Tramp bildirib ki, onun səfəri sırf şəxsi olub və o, muxtariyyət səlahiyyətliləri ilə görüşməyi planlaşdırmır. Lakin həmin gün atası bir daha ABŞ-ın Qrenlandiya və Panama kanalına nəzarəti ələ keçirmək istədiyini bəyan etdi və bunu hərbi yolla etməkdən imtina edib.

## Panama

Trampın üçüncü ərazi iddiası Sakit okeanda Panama körfəzini Karib dənizi və Atlantik okeanı ilə birləşdirən, dünyanın ən mühüm su yollarından biri olan Panama kanalına nəzarətdir. 1999-cu ilə qədər ABŞ-ın nəzarətində idi, lakin indi Panama əyalətinə aiddir.

Dekabrın 21-də Tramp Panama kanalından istifadəyə görə gülünc dərəcədə yüksək tariflər təyin etməkdə günahlandırıb və onun ABŞ-ın nəzarətinə qaytarılmasını tələb etməklə hədələyib. Onun sözlərinə görə, kanal Amerika iqtisadiyyatı və milli təhlükəsizliyi üçün həlledici rol oynayır və Trampın sözlərindən irəli gələn yanlış əllərə, yəni Çinin nəzarətinə keçməsinə icazə verilə bilməz. Panama prezidenti Xose Raul Mulino cavabında bəyan edib ki, "Panama kanalı və onun ətraf ərazilərinin hər kvadratmetri Panamadır və bundan sonra da ona məxsus olacaq". O, kanalın birbaşa və ya dolayı yolla Çin tərəfindən idarə olunmadığını qeyd edərək, Panama ilə ABŞ-ın yeni administrasiyası arasında yaxşı və hörmətli münasibətlərə ümid etdiyini bildirib.

Və yanvarın 7-də Tramp elan edib ki, guya o, artıq Panama hakimiyyəti ilə kanalın taleyini müzakirə edir. Ölkənin Xarici İşlər Nazirliyi buna cavab olaraq bildirib ki, Panama hökumətinin ABŞ-ın yeni administrasiyası ilə heç bir əlaqəsi yoxdur. Respublikanın Xarici İşlər Naziri Xavyer Martines-Acha Vazquez, kanalın suverenliyinin müzakirə olunmadığını və "mübarizə tariximizin bir hissəsi olduğunu" vurğulayıb.

**V.VƏLİYEV**

# “Körpə uşağın heç bir günahı yoxdur”

**Jurnalist ekspert Ağa Dadaşzadənin SİA-ya verdiyi müsahibəsini təqdim edirik:**

*- Sizcə, boşanmaların sayı niyə artır və yaxud niyə boşanırıq?*

- Serial, film bunlar hamısı bəhanələrdir. Bu mövzuların heç birinin boşanmada ciddiyyəti yoxdur. Bir insanın şüuru yoxdursa, nəinki serial heç nə buna təsir etməyəcək. Birincisi, Azərbaycanda ailə institutu yoxdur. Əgər olsaydı bu vəziyyət də olmazdı. İkincisi, ailə nədir? Ailə kiçik bir dövlətdir. Böyük bir dövlətin güclü olması üçün onun gərək kiçik dövlətləri güclü olsun. Bu dövlətçiliyə birbaşa təsir göstərən amillərdən biridir. Bizim olduqca gözəl mentalitetimiz var. Düzdür, bəzi məqamlarda geridə qalmışıq, müasir dövrün standartlarına cavab vermirik. Amma ümumi götürəndə bizim olduqca yaxşı mənəvi dəyərlərimiz var. O dəyərlər üzərində getməliyik.

*- Bu qanunda hansı boşluqlar var?*

- 80-cı illərdə ”Mozalan” çəkilmişdi. Deməli, 3 dəfədən sonra deyir ”Sən bu xanımla ailə qurmağa razısanmı?”. Kişi də hər dəfə bir xanımla gəlir və 3 mərhələdən sonra deyir, ”Bu xanımı sevirəm”. Gəl, bununla nikahını rəsmiləşdirək. Hazırda tibbi müayinə var. Qanun yaxşı ki, onu qoyub. Amma bununla bağlı vaxt qoyulmalıdır. Zaman kəsiyində orada suallar verilməli və test imtahanları ödənişli şəkildə olmalıdır. Məsələn, mən bu xanımı istəyirəmsə ya xanım məni istəyirsə, əgər sevirlərsə həmin o rüsumu dövlətə ödəsin. Bu rüsumu qoy ki, həm dövlətə xeyri olsun, həm də ki kiçik dövlətlərin qurulmasında bu rüsum əsas pay sahibi olsun. 3 mərhələli olsun. Birində test imtahanları, 2-ci vaxt, 3-cü danışıq. Sən niyə bu adamla evlənmək istəyirsən? Niyə seçmisən? İndi etiraflar var ki, atasının imkanı var seçmişəm və yaxud guya qız gözəldir. Çox şeylər üzə çıxa biləcək. Mən düşünürəm ki, 6 ay vaxtda standart bir paket hazırlasınlar.






*- Ümumiyyətlə, maraqlı məqamlardan biri də boşanmaların həqiqətən səbəbləri çoxdur. Bəziləri də buna asan qazanc yolu kimi baxır ki, məhz aliment alacam. Sizə elə gəlmir ki bu proses də boşanmalarda rol oynayır?*

- O axmaq düşüncədir, lap elə mən ailə qurum. Bu ailənin boşanması bədbəxtçilikdir. Çünki uşaq ortada qalır. Axı bu körpə uşağın heç bir günahı yoxdur. Alimentlə nə etmək olar?! Maşın almaq olmaz, ev almaq olmaz. Bu həm də baxır kişinin qazancına. Kişi nə qədər qazanırsa bir o qədər orada bölgü olur. Asan qazanc yolu deyəndə, inanın səmimiyyətimə axmaq düşüncədir. Bu alternativ variant kimi beyinlərdə var ki, belə olacaq. Arada gənc vaxtlarımda çox dalaşqan idim. Amma indi deyirəm ki, yox dalaşmaq olmaz. Söz-söhbət olacaq, inciklik olacaq, məhkəmə olacaq. Normal həyat sürməliyik. İnsan düşünməlidir ki, bir boşanma prosesində nə qədər məhkəmələr, nə qədər ərizələr yazılır, fikir mübadilələri aparılır. Adamın başı şişir.

Hamısından yaxşı normal istiqamətdə sistemli şəkildə ailə qurmaqdır. Biz boşanmış ailələrlə qırğınlarda oluruq. Aliment versə də deyir 6-cı gün uşağı görmək istəyirəm, söyüş, qırğın dava genişlənir. Bazar günü uşağı mən göstərmirəm. Oğlan gəlir qadının evində dava edir, qadın da gedir oğlanın evində dava edir.

Hələ tanınmış həkimlərdən biri var, onu tanıyırsınız. O qaynanasının evində nə oyun çıxardır. 40-dan çox yaşı var, illər öncə də boşanıblar. Hətta iki gün əvvəl yeni tikili binaların birində elə bir səs-küy qopartmışdılar ki, bütün qonşular çıxıb onlara tamaşa edirdi. Tanınmış bir adamdır. Nə var-nə var mən uşağı görmək istəmişəm, bir saat gec gəlmisən, mənim də pasientim olub uşağı görməmişəm. Bu hər şeyi ayaqlar altına atır. Uşaqlar travma alır.

*- Mediasiya Şurasına ümidimiz vardı amma təəssüflər olsun ki, o da gözləntiləri doğrultmadı. Bəs siz bu barədə necə düşünürsünüz?*

- Mediasiya Şurası bizim öz ailəmizdir, cəmiyyətimizdir, öz yaxınlarımızdır. Siz dediniz 60 yaşda boşananlar var. Norveçdə pulu olan imkanlı kişilər gördüm ki, mən 64-66-67 yaşında öz həyat yoldaşlarından boşanıb özlərindən 20-30 yaş cavan xanımlarla ailə qurmağa meyl edirlər. Yəni ümumi olaraq dünyada o niyyət, məqsəd, tamah eynidir. Həqiqətən də başı dinc olsun, halallıq olsun deyə illər boyu qoruduğun ailəni tamaha görə dağıdırsan. Yəni ifratçılıq özü tamah deməkdir”.

**Ayşən Vəli**

# Gürcüstan Qərblə münasibətləri dəyişə bilər - BİR ŞƏRTLƏ

***Gürcüstan Qərblə münasibətlərində dəyişiklik üçün ilkin şərtlərini açıqlayıb. Çərşənbə günü hakim ”Gürcü Arzusu”nun siyasi şurası bildirib ki, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın və komandasının bu ölkənin rəsmi strukturlarının ”dərin dövlət”dən təmizlənməsi zərurəti ilə bağlı bəyanatlarını ”həvəsləndirici” adlandırıb.***





Gürcüstanın hakim partiyası Amerikanın özünün və bir çox başqa ölkələrin problemlərinə görə hakimiyyətdən gedən ABŞ administrasiyasını və onun daxilindəki ”dərin dövləti” günahlandırıb. ”Dərin dövlət” Avropa İttifaqına ağır iqtisadi problemlər gətirdi, bir çox dövlətləri müharibəyə sürüklədi, lakin ən dağıdıcı təsirini dost Ukraynaya gətirdi”, ”Gürcü arzusu” bildirib.

Gürcüstanın hakim partiyası hesab edir ki, Donald Trampın ”dərin dövlət”lə mübarizədəki uğuru Vaşinqton və Tbilisi arasında ikitərəfli maraqlara cavab verən münasibətlərin yaxşılaşmasına gətirib çıxaracaq. Macarıstanın baş naziri Viktor Orbanla razılaşan ”Gürcü Arzusu”na görə, ”Avropada ”dərin dövlət”in metastazlarını məhv etmək daha çox vaxt aparacaq”. Söhbət konkret şəxsdən - Sorosdan yox, ”dərin dövlət”in oliqarx şəbəkəsindən gedir. Onun Avropadakı təsirinin metastazını məhv etmək Tbilisi ilə Brüssel arasında münasibətlərin bərpası üçün şərtdir.

Eyni zamanda ”Gürcü arzusu” ”Aİ bürokratiyasını” ”anti-Gürcüstan siyasətində” ittiham edib. Gürcüstanın hakim partiyası 2030-cu ilə qədər Avropada ”dərin dövlət”in məhvinə ümid etdiyini bildirib ki, bu da Gürcüstanın Avropa İttifaqına üzvlüyünə şərait yaradacaq. Eyni zamanda, Gürcüstana Aİ-nin üzləşdiyi problemlərin aradan qaldırılmasında ”aktiv iştirak” sözü verilib.

**V.VƏLİ**

# Xarici investorlar üçün cəlbedici ölkə - AZƏRBAYCAN

## *Ölkəmizdə şəffaf investisiya və rəqabət mühit mövcuddur*

***Ölkə iqtisadiyyatının inkişafına ciddi şəkildə təkan verən amillərdən biri də şəffaf investisiya mühitinin yaradılması, eyni zamanda, rəqabət mühitinin sağlamlaşdırılmasıdır. Bu amillərdən səmərəli istifadə edən dövlətlər bu gün iqtisadi göstəricilərinə görə dünyanın ən inkişaf etmiş ölkələri sırasındadır. Azərbaycan dövləti də son 15 ildə investisiya mühitinin sağlamlaşdırılması istiqamətində ciddi islahatlar aparmış, müasir iqtisadi inkişaf texnologiyaları tətbiq etmişdir. Məhz bunun nəticəsidir ki, ötən 16 ildə ölkə iqtisadiyyatına 240 miyard dollardan çox sərmayə yatırılmışdır.***



Qeyd edək ki, ölkəmizə investisiya yatırılması prosesinin sürətlənməsinin başlıca səbəbi bu sahənin inkişafı üçün təkmil hüquqi bazanın yaradılması olmuşdur. Xüsusilə sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması, sahibkarlıq subyektlərinin dövlət orqanlarında qeydiyyata alınması proseslərinin asanlaşdırılması məqsədilə ”Bir pəncərə” sistemi təbiq edilərək ölkəmizdə biznesə başlama prosedurları 15-dən 2-yə və bunun üçün sərf olunan vaxt 30 gündən 2 günə endirilmişdir Həmçinin fərdi sahibkarların vergi orqanlarına gəlmədən real vaxt (onlayn) rejimində qeydiyyata alınması sistemi işlək vəziyyətdədir. O cümlədən sərmayə yatıranlara vergilərdə 129 güzəşt və azadolma mövcuddur. Belə ki, sənaye və texnologiya parklarına investisiya qoyuluşlarının stimullaşdırılması məqsədi ilə hazırda sənaye, yaxud texnologiyalar parklarında hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər 7 il müddətinə mənfəət, əmlak, torpaq və əlavə dəyər vergilərindən, eyni zamanda, bəzi gömrük rüsumlarından azad ediliblər.



Digər önəmli məsələ isə ölkəmizdə xarici investisiyaların qorunması məqsədilə mövcud qanunlar davamlı olaraq təkmilləşdirilməsidir. Azərbaycanın investisiya mühiti investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılması, Appelyasiya şuralarının təşkili, ”İnvestisiya fəaliyyəti haqqında” ”Xarici investisiyaların qorunması haqqında”, ”Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” qanunlarla və bir sıra normativ sənədlərlə tənzimlənir. Yəni, bu gün xarici və yerli sahibkarın investisiyasına hər hansı təhlükə mövcud deyildir.






Həmçinin ölkəyə xarici investorların cəlb edilməsi üçün lisenziya məsələsində də ciddi təkmilləşmələr aparılıb. Belə ki, Azərbaycan Respublikası Prezidentinin ”Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında” Fərmanına əsasən, İqtisadiyyat Nazirliyi tərəfindən dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla lisenziyaların ”ASAN xidmət” mərkəzləri vasitəsilə verilməsinə başlanılmışdır. Eyni zamanda, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, indiyə kimi verilmiş qüvvədə olan müddətli lisenziyalar müddətsiz elan olunmuş, yeni verilən lisenziyalar isə müddətsiz müəyyən edilmiş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə (regional televiziya və radio yayımı istisna olmaqla) azaldılmış, lisenziya verən dövlət orqanlarının sayı 23-dən 4-ə, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilmiş, lisenziya verilməsi üçün tələb olunan prosedurlar isə sadələşdirilmişdir.

Bundan başqa, Vergi Məcəlləsində edilən dəyişikliklərə əsasən investorlara xeyli güzəştlər edilib. Belə ki, investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq olaraq mənfəət və gəlirin 50 faizinin vergisini, müvafiq əmlakına görə əmlak vergisini və mülkiyyətində və ya istifadəsində olan torpaqlara görə torpaq vergisini, həmçinin onların idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular üzrə idxalda əlavə dəyər vergisini ödəməkdən azad ediliblər.

Eyni zamanda, son dövrlərdə ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində görülmüş önəmli işlərin sırasında qeyri-qanuni yoxlamaların dayandırılması da var. Məhz bu və digər çox önəmli islahatlara və yenilənmiş hüquqi bazaya əsasən, ölkəmizə sərmayə qoyanların sayı artmaqdadır.

**_E. Zaman_**

# İtirdiyimiz xüsusiyyətlər: namus

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması “ istiqaməti çərçivəsində hazırlanıb*

XX YAZI



**Lalə Mehralı**

Namus insanın şərəfini, şəxsiyyətini, mənliyini qoruyan ən vacib dəyərdir. Əxlaqi dəyərlərə, insani keyfiyyətlərin ən alisinə sahib bir insanı xarakterizə edərkən ən birinci onun namuslu olması barədə danışılır. Xüsusilə şərq cəmiyyətlərində namus bir insanın xarakterində ən vacib hesab edilən özəllikdir. Onun yoxluğu insan mənəviyyatının çöküşü deməkdir və bu da cəmiyyətin tənəzzülünə rəvac verən ən əhəmiyyətli çatışmazlıqdır. Namus özündə şərəfi, ləyaqəti, iffəti, izzəti, doğruluğu, dürüstlüyü, mənəviyyatı əhtiva edən ən ali insanlıq dəyəridir.

Yaşadığımız dövr insanlığın imtahanıdır və əfsus ki, bəşəriyyət bu imtahandan keçə bilmədi. Mövcud vəziyyətin yaratdığı mənəvi böhran sürətlə dərinləşir və cəmiyyətin parçalanmasına doğru gedir. Əxlaq, insan və insan münasibətlərinin ən təməl dəyərlərindən biridir. Amma təəssüflər olsun ki, bəzən cəmiyyətdə əxlaqi hərəkətlərin, namus anlayışının yalnız bir cinsə aid edilməsinin şahidi oluruq. Mən nə demək istəyirəm? Şərəf, həya, ar, iffət, namus kimi məfhumların yalnız qadınlara aid edilməsi məni narahat edir. Hansısa bir qadının namus üstündə öldürülməsi, amma onu öldürən kişinin illərin namussuzu olması faktı cəmiyyətdə hamını narahat etməlidir, amma etmir.

Haradasa oxumuşdum ki, namus anlayışı kişilər vasitəsilə yaranıb və qadınlara yüklənib. Halbuki namus ümumi qavramdır və bütün insanlar üçün mahiyyəti eynidir. İnsanlar namus məfhumunu həqiqət və dürüstlük məfhumundan kənarlaşdırıb onu xırda, maddi amillərlə əlaqələndiriblər zamanla. Çünki yalnız qadınların çiyinlərinə yüklənən namus anlayışı şərəf, iffət və qürur kimi ülvi məfhumları da primitivləşdirir. Cəmiyyətdə elə bir fikir formalaşdırılır ki, namus yalnız qadınlara xas xüsusiyyətdir və kişinin etdiyi əxlaqdan kənar hərəkətlər namus qavramına aid deyil. ”Namussuz” töhməti yalnız qadınlara şamil edilir, ən böyük namussuzluğu kişi də etsə, günahkarı hansısa bir qadın hesab edilir.

Ümumiyyətlə, mənəvi dəyərlərin cəmiyyətin bir seqmentinə və ya iki cinsdən birinə aid olması fikri insanları dəyərsizləşdirir, fikrimcə, bu da zamanla cəmiyyətdə əxlaqsızlığın qanuniləşməsinə gətirib çıxarır. Sadiqliyi, iffəti, həya və namusu yalnız qadınlara məxsus dəyərlər kimi görmək və onları qadınlardan gözləmək normal davranış deyil. Belə etməklə kişiləri bu dəyərlərdən uzaqlaşdırır, nə cür davranırsa davransın, heç bir məsuliyyət hiss etməməsi istiqamətində tərbiyələndirirlər. Əgər iki cins qərar verib ailə olursa, ikisinin də bu ailə üçün öhdəlikləri var və həya, namus, şərəf, sədaqət hər ikisi üçün də eyni dərəcədə öhdəlik olmalıdır.

İffət... Ən son nə vaxt eşitmisiniz bu sözü? İffət insani keyfiyyətdir, sonradan yaranmır, satılmır, alınmır. Bu keyfiyyət də namus kimi yalnız qadınlara aid deyil. Nikah zamanı o imza ilə kişi və qadın bir-birinə söz verirlər əslində - həm özlərinin, həm də ailənin iffətini, namusunu qorumaq üçün. Yəni bu vəd təkcə qadınların deyil, kişilərin də vədidir. Vədini pozan, ailə birliyinə, iffətinə xələl gətirən tərəf kişi olanda ”kişidir, yenə ailəsinə qayıdacaq” deyən cəmiyyət qadın üçün eyni tolerantlığı göstərmir. Halbuki, hər ikisi üçün iffət anlayışı eynidir və biri digərindən üstün deyil. Qadının da, kişinin də iffətsizliyi eyni dərəcədə narahat etməlidir cəmiyyəti.

İffəti, namusu cılızlaşdırıb ”insanların maddi ləzzətlərə meyli” kimi xarakterizə etmək yanlışdır. Çünki insanın bütün həyatı boyunca əməl edəcəyi bu insani keyfiyyət yalnız namus sözü ilə sinxronlaşdırmaq doğru deyil. İffət yalnız qadınlara xas olmayan, insanları əhd-peymanlarına sadiq edən, həddi aşmaqdan qoruyan, öz nəfsi və şəxsi ambisiyalarına görə cəmiyyətə zərər verməkdən çəkindirən bir keyfiyyətdir, hər nə qədər son illər nadir rastlanan xüsusiyyət olsa da.

Namus anlayışı mühafizəkar cəmiyyətlərdə insanlar üçün həyati əhəmiyyət kəsb edən anlayışlar arasındadır. Namusun qorunması insanın, xüsusilə qadının doğulması ilə başlayır və ömrü boyu davam edir. Əslində, kişi və qadından asılı olmayaraq hər kəsin öz namusunu qorumalı olduğu fikri kiçik yaşlarından aşılansa, bəlkə cəmiyyətdə namus kəlməsi bu qədər müzakirə edilməzdi. Bakirəlik, iffət, həya, ar, namus anlayışları yalnız qadınlara aid edilməsə, kişilər üçün də bu anlayışların böyük məna kəsb etdiyini aşılasalar bəlkə də bu qədər çox namus davası edilməz. Qadın öz namusunu, iffətini qoruduğu kimi kişilər də maksimum diqqət etsə nə ailələr dağılar, nə boşanmalar yüksələr, nə də abır-həya itər. Amma qadına biçilən o dar don kişilərə ”ovesize”dir. Kişi ailəsinə xəyanət edəndə ”kişidir, bir səhvdir edib” anlayışı göstərən cəmiyyət qadın üçün ölüm fərmanı yazır. İkisi də eyni günahı, eyni səhvi edib, ailə bütünlüyünə hər ikisi xələl gətirib, amma cəza qadına, səfa kişiyə...

Cəmiyyətimiz dəhşətli bir vəziyyətin içərisindədir. Namus sözü lüğətimizdən silinmək üzrədir. Azərbaycan öz tarixi boyunca mənəvi baxımdan hələ belə xaotik vəziyyətdə olmamışdı. Cəmiyyətin mənəviyyatı intihar etmək üzrədir, namus uçuruma doğru qaçır desək, yanılmarıq. Evli qadınların eşq macəraları, 3-4 uşağı olan kişilərin subay qız qaçırması, ananın övladını beşikdə, ərini yuxuda qoyub sevgilisinə qaçması, qayınataların gəlininə göz qoyması - biz hələ nələr görüb, nələr eşidəcəyik? Üstəlik, bu biabırçılıqların hamısı efirlərdə nümayiş etdirilir, sosial layihə adı verilən proqramlarda cəmiyyətə göstərilir. O proqramlarda Azərbaycan kişisi evdən qaçan arvadı üçün ağlayır, o verilişlərdə kişilər onu yatmış vəziyyətdə qoyub qaçan qadına yalvarır ki, evinə qayıtsın. Ailəli olduğu halda aylardır başqa kişi ilə vətəndaş nikahında yaşayan, efirdən bütün ölkəyə namussuzluğu nümayiş etdirilən o qadınlar aylar sonra evinə qayıdır, heç nə olmamış kimi həyatına davam edir.

Ailə kimi milli dəyəri, toxunulmaz müəssisəni cılızlaşdırıb elə görkəmə saldılar ki, müqəddəsliyini itirdi. Ailə nədir, namus nədir, namuslu və ya namussuz insan arasındakı fərqlər nədir - indi bunlara əhəmiyyət verən çox az qisim insan var. Qadına namus yükünü yükləyib kişiyə azad dünyanın qapılarını açan cəmiyyət qarşısıalınmaz bir uçurum inşa etdi. Ailəsinin müqəddəsliyini idrak edən insanların sayı getdikcə azalır. Namusun necə ali dəyər olduğunu dərk edənlərin sırası sürətlə seyrəkləşir.

Ailə bütövlüyü yalnız qadının və ya kişinin yükü olmamalıdır, ümumiyyətlə, ailə qavramı yük olmamalıdır. Bu, könüllü qurulan müəssisədir və hər iki tərəf üçün də vəzifə, öhdəlik eynidir. Nə qədər ki, öldürülən hər qadın üçün ”yəqin bir namussuzluğu olub” düşüncəsi hökmran olacaq, o müddətcə namus anlayışı yalnız qadının iki ayağı arasında axtarılacaq, nə qədər ki, kişilərin namus anlayışı cinsi münasibətlərdən uzaq tutulacaq, kənarda qarışdırdığı qələtlər ört-basdır ediləcək, o müddətdə də namus anlayışı don dəyişdirəcək. Namusu qadın, namussuzluğu kişi üçün normallaşdıran cəmiyyətlərdə ailə məfhumu məhvə məhkumdur.

İtirdiyimiz xüsusiyyətlər arasında namusun da olduğunu qəbul etmək istəmir insan, mübarizə etmək istəyirsən, amma namusun nə olduğunu çoxdan unudan insanların yaratdığı divara çırpılırsan. O divarı yıxmaq, namusun itmədiyini, unudulmadığını, hələ var olduğunu sübut etmək günü-gündən çətinləşir. Namus dəyərdir, onu kimin geyinməsindən asılı olmayaraq ən qiymətli paltardır. Namus insani keyfiyyətdir və cinsi yoxdur.

## Tələbələrin təhsillə bağlı xaricə üz tutmalarının səbəbləri NƏDİR?



“Bugün Azərbaycanlı gənclərin xarici təhsil almasına marağı ildənilə artır. Bunun bir neçə səbəbi var. Birincisi xaricdəki yüksək səviyyəli universitetlərə meyl öz ixtisasına görə yerli universitetlərimizin deyil, xaricdə olan ali təhsil müəssisələrinin daha faydalı olması qənaəti, ikinci ümumiyyətlə xarici universitetlərin daha maraqlı gəlməsi, üçüncü və ən çox yayılmış variant isə yerli ali təhsil müəssisələrimizə qəbul ola bilməyib son nəticə kimi qonşu dövlətlərdən imtahansız və yaxud da ki yüksək nəticə tələb etməyən imtahanlardan keçərək orada oxumaqdır”. Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, elm və təhsil məsələləri üzrə tədqiqatçı Elmin Nuri SİA-ya açıqlamasında deyib.

Onun sözlərinə görə, bunlara əsasən Türkiyə, Rusiya, Ukrayna universitetləri aid edilir: ”Əmin ola bilərsiniz ki, bizim xaricdə təhsil alan gənclərimizin 90-95 faizi dediyim üçüncü qrupa daxildir. Yəni biz xaricdə təhsil deyəndə, bundan bəh-bəhlə danışa bilmərik. Düzdü, nə gözəl ki bizdə dövlət tərəfindən təsdiqlənən xarici təhsil proqramı var, orada çox bacarıqlı və xüsusi savad intellektinə malik olan insanlar təhsil alırlar. Bu xarici təhsil hesab olunmalıdır. Amma onların sayı artıq o qədər azdır ki, bu bizdən hər il Türkiyəyə gedən tələbələrin sayının heç 1% i etmir. Sadəcə getsinlər oxusunlar, biz buna etiraz etmirik. Bunu demək doğru olmaz ki ”X” adlı bir tələbə bizdən harasa universitetə düşə bilməyib yaxud da ki, hansısa özəl universitetləri bəyənməyərək Türkiyəyə oxumağa gedib. Təbii ki, o öz pulunu xərcləyir və onun yatırımcısı öz valideynləridir. Onun seçiminə qarışa bilmərik. Amma orada belə heç olmasa oxusunlar və oxuduqları universitetlərdə, təhsil aldıqları ixtisaslarda yaxşı kadr kimi özlərini formalaşdırsınlar. Bax bu göstərici zəifdir, məsələnin ən böyük problemli tərəfi budur. Biz təbii ki, uşağı danlaya bilmərik ki, sən niyə bizim dövlət imtahanımızın xətti ilə olan imtahanda uğur qazana bilmədin və buna görə Türkiyədə oxuyursan. O bunun şəxsi fikridir. Buna bizim hüquqi və mənəvi haqqımız çatmaz. Lakin digər tərəfdən ona mənəvi haqqımız çatar ki, minlərlə tələbədən onların hesabatını soruşaq ki, hər il Türkiyə, Rusiya, Ukrayna universitetlərindən bu qədər məzun gəlir. Onların müəyyən qədərinin diplomları qeydiyyatdan keçir təsdiqlənir, burada əmək bacarığındakı mövqeyi nə yerdədir? Bunun barədə yaxşı tədqiqat işi hazırlanmalıdır”.

Həmçinin Elm və təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi qeyd edib ki, gənclərin xaricdə təhsil almalarına səbəb Azərbaycan Ali təhsil müəssisələrinə qəbul ola bilməmək ehtimalıdır: ”Ali təhsil müəssisələrinə qəbul imtahanlarında 100 min tələbə iştirak edir, onlardan hər il plan yerinin dəyişimini nəzərə alaraq 55 min yaxud 60 min tələbə qəbul ola bilir. Müraciət edən tələbələrin içərisindən isə təxminən 30-40 mini Ali təhsil müəssisələrini qazana bilmir və nəticədə də qeyri-leqal üsullarla xarici ölkə universitetlərinə müraciət edirlər. Əsasən də attestatla qəbul həyata keçirilir. İstisna hallarda isə bunların arasında beynəlxalq sertifikatlara, leqal yolla qəbul olan tələbələrdə var, lakin onlar da çox az saydadır. Digər hansıki qarşılarına məqsəd qoyub xarici ali təhsil müəssisələrinə qəbul olmaq istəyən vətəndaşlarımız dövlət proqramlarına müraciət edirlər. Dövlət proqramları müxtəlif illərdə olub, sonuncu belə bir proqram isə 2022-2026-ci illəri əhatə edirdi və dövlət başçısının sərəncamı əsasında bura 2 ildə əlavə olundu. Yəni bu 2022-2028-ci illəri əhatə edəcək. Həmin dövrdə də magistratura, bakalavr və artıq son qərarla doktorantura pilləsində də xaricdə təhsil almağa imkan yaradılır”. Mütəxəssis bildirib ki, bu dövlət proqramına qoşulan insanlar daha çox xaricdə təhsil almağa maraqlı və istəklidirlər: ”Başlıca səbəb də ondan ibarətdir ki, xaricdə daha keyfiyyətli təhsil alacaqlarını düşünürlər və təbii ki bu təhsillə təmində olunurlar. Biz ölkəmizdə Ali təhsil müəssisələrinə baxsaq barmaqla sayılacaq qədəri keyfiyyətli təhsil təqdim edə bilir. Qalanları isə o qədər də uğurlu təhsil verə bilmir”.

***Xeyrənsə Piriyeva***

SON SƏHİFƏ
SƏS
10 yanvar
2025-ci il

# Sosial şəbəkədə “ucuz telefon” satanlar yaxalandılar



Naftalan Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə sosial şəbəkələrdə dələduzluq edən 30 yaşlı Z.Hüseynov və 27 yaşlı N.Əliyev saxlanılıb. DİN-in mətbuat xidmətinin Gəncə regional qrupundan verilən məlumata görə, həmin şəxslər müxtəlif sosial şəbəkələrdə tanış olduğu şəxslərə ucuz mobil telefon təklif edərək, 1340 manat pulu dələduzluq yolu ilə ələ keçiriblər . Faktlarla bağlı cinayət işi başlanıb, araşdırmalar davam etdirilir. Z.Hüseynov və N.Əliyevin digər analoji cinayətlərdə iştirakı istisna edilmir. Əgər bu şəxslərin əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə polis orqanlarına məlumat verə bilərlər.

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Niko Kovaç ”Beşiktaş”ın baş məşqçisi olacaq?



Türkiyənin ”Beşiktaş” komandasının yeni baş məşqçisinin kim olavağı barədə müzakirələr bitmir. Türkiyə mətbuatının yazdığına görə, İstanbul nəhəngi xorvatiyalı mütəxəssis Niko Kovaçla anlaşıb. 53 yaşlı çalışdırıcı ilə klub prezidenti Serdal Adalı arasında telefon zəngi vasitəsilə razılıq əldə olunub.

Onunla 3.5 illik müqavilə imzalanacaq. Qeyd edək ki, Niko Kovaç məşqçilik karyerası ərzində daha əvvəl ”Bavariya”, ”Volfsburq”, ”Ayntraxt” (hər üçü Almaniya),”Monako” (Fransa) və Xorvatiya millisində işləyib.



# Bakının 6 küçəsində skuter parklanma məntəqəsi yaradılıb

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) Bakının 6 küçəsində skuter parklanma məntəqəsi təşkil edib. Bu barədə agentlik məlumat yayıb.***

Məlumata görə, bunlar Ayna Sultanova, Landau, Zahid Xəlilov, Əbdürrəhim bəy Haqverdiyev, Akim Abbasov və Həsən bəy Zərdabi küçələridir. Məqsəd paytaxtda mikromobillik imkanlarını artırmaqdır.

# Kıvanç Tatlıtuğ yeni serialda - qazancı gizli saxlanılır...

***Türkiyəli aktyor Kıvanç Tatlıtuğun yeni serialı bəlli olub. Türkiyə mediasının yazdığına görə, məşhur aktyor ”Şakir Paşa ailesi” serialında rol alacaq. O, layihənin 5 bölümünə çəkiləcək.***



Kıvanç ekran işində ”Rozalia” (Məryəm Üzərli) obrazının sevgilisini canlandıracaq. Türkiyə mediası yazır ki, ulduz aktyor bu çəkilişlər üçün fantastik məbləğ qazanacaq. Media onun bu serialdan gəlirinin gizli saxlanıldığını yazır.

Qeyd edək ki, ekran işində baş rolları Fırat Tanış, Vahidə Perçin, Məryəm Üzərli canlandırır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700